**“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı məsələlər haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Qanunun qüvvəyə minməsi və “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Qanunun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1996-cı il tarixli 438 nömrəli sərəncamına əsasən Nazirlər Kabineti **qərara alır:**

1. Əsərin qeydiyyatı haqqında şəhadətnamənin nümunəsi və verilmə qaydası təsdiq edilsin (Əlavə 1).

2. Azərbaycan Respublikası ərazisində tətbiq olunan müəllif müqavilələrinin nümunəsi təsdiq edilsin (Əlavə 1).

3. Ədəbiyyat və incəsənət əsərlərindən istifadənin bəzi növlərinə görə müəllif qonorarının minimum miqdarları və hesablanması qaydaları təsdiq edilsin (Əlavə 3-8).

4. Televiziya və radio verilişlərinin, televiziya filmlərinin və digər televiziya və radio əsərlərinin yaradıcılarına ödənilən müəllif qonorarlarının və sair ödənilən haqların miqdarı və verilməsi Qaydaları təsdiq edilsin (9 nömrəli əlavə).**i[1]**

5. Dövlət sifarişi ilə istehsal edilən kinofilmlərin yaradıcılarına ödənilən müəllif qonorarlarının və sair ödənilən haqların miqdarı və verilməsi Qaydaları” təsdiq edilsin (10 nömrəli əlavə).**ii[2]**

6. Müəyyən edilsin ki, müəllif qonorarının bu qərarın 3-cü bəndində müəyyən edilmiş miqdarları 3 yanvar 1997-ci il tarixdən tətbiq olunur.**iii[3]**

7. Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının qorunması üçün əlaqəli hüquq obyektlərindən istifadəyə görə minimum miqdarlar haqqında müvafiq təklif hazırlayıb Nazirlər Kabinetinə təqdim etsin.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 2 may 1997-ci il

№ 38

**Əsərin qeydiyyatı haqqında**

**ŞƏHADƏTNAMƏ**

**№_____**

**BAKI**

Əsərin adı ________________________________________________________________

Obyektiv forması ____________________________________________________________

Növü ______________________________________________________________________

Açıqlanması ________________________________________________________________

Qeydiyyat nömrəsi ___________________________________________________________

Qeydiyyat tarixi _____________________________________________________________

Müstəsna müəlliflik hüquqlarının sahib(lər)i ____________________________________

___________________________________________________________________________

___________________________________________________________________________

___________________________________________________________________________

Sifariş № __________________________________________________________________

Şöbə rəisi _________________________________________________________________

~~Bu Şəhadətnamə müəlliflik prezumpsiyası kimi çıxış etmir.~~ Mübahisə yaranan hallarda, digər sübutlar olmadıqda, qeydiyyat haqqında şəhadətnamə məhkəmə tərəfindən müəlliflik prezumpsiyası kimi tanınır ("Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 8, bənd 5).iv[4]

"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq və Azərbaycan Respublikası Prezidentinin "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 8 oktyabr 1996-cı il tarixli sərəncamı ilə verilən səlahiyyətlər əsasında Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi

Müstəsna müəlliflik hüquqları sahib(lər)inin soyadı, adı, atasının adı _______

___________________________________________________________________________

___________________________________________________________________________

___________________________________________________________________

Əsərini ____________________________________________________________

___________________________________________________________________

qeydiyyatdan keçirmiş və bu Şəhadətnaməni vermişdir.

*Sədr* ___________________

***M.Y.***

---

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1997-ci il 2 may tarixli 38 nömrəli qərarına
**Əlavə 1**

**Əsərin qeydiyyatı haqqında şəhadətnamənin verilmə qaydası**

1. Müstəsna müəlliflik hüquqlarının sahibləri müəlliflik hüququnun qüvvədə olduğu müddətdə əsərlərini Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçirə bilərlər.

2. Təyinatından, dəyərindən və məzmunundan, habelə ifadə edilmə formasından və üsulundan asılı olmayaraq yaradıcılıq fəaliyyətinin nəticəsi olan həm açıqlanmış, həm də açıqlanmamış, obyektiv formada olan bütün əsərlər qeydiyyatdan keçirilə bilər.

3. Qeydiyyat üçün təqdim olunan əsər hər hansı bir maddi daşıyıcıda olmalı və mövcud qanunvericilikdə müəllif hüququnun obyekti olan əsərlər üçün müəyyən edilmiş tələblərə cavab verməlidir.

4. Əsərin qeydiyyata alınması üçün ona müvafiq ekspert rəyinin verilməsi zərurəti yarandıqda əsərlər rəyə göndərilir.v[5]

5. Şərikli əsərin qeydiyyata alınması üçün şərik müəlliflərdən hər biri, aralarındakı müqavilədə başqa hal nəzərdə tutulmazsa, müstəqil qaydada qeydiyyat üçün müraciət edə bilər.

6. Əsərini qeydiyyatdan keçirən hüquq sahibinə Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi nümunəvi forma üzrə şəhadətnamə verilir.vi[6]

7. Şərikli əsər qeydiyyatdan keçirilərkən şərik müəlliflərdən hər biri qeydiyyat haqqında şəhadətnamə ala bilər.

---

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1997-ci il 2 may tarixli 38 nömrəli qərarına

**Əlavə 2**

## Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi Müəllif müqaviləsi

Öz fəaliyyətini mövcud qanunvericilik və ______________________________________

______________________________________________________________

*(nizamnamə, əsasnamə, şəhadətnamə, qeydiyyat nömrəsi və tarixi)*

əsasında həyata keçirən ______________________________________________

______________________________________________________________

*(idarə, müəssisə, təşkilatın adı)*

bundan sonra "İstifadəçi" adlanacaq, onun şəxsində ____________________________

______________________________________________________________

*(müqaviləni imzalayan şəxsin vəzifəsi, soyadı, adı və atasının adı)*

bir tərəfdən və müəllif(lər) və ya müəlliflik hüquqlarının digər sahibləri, bundan sonra "Müəllif" adlanacaq, onun şəxsində ______________________________

______________________________________________________________

*(müqaviləni imzalayan şəxsin soyadı, adı və ünvanı)*

digər tərəfdən aşağıdakılar haqqında müqavilə bağladılar:

**1. Əsas anlayışlar**

1.1. "**Müəllif**" — əsərin yaradıcısı, fiziki şəxs.

1.2. "**Əsər**" — təyinatından, dəyərindən və məzmunundan, habelə ifadə edilmə formasından və üsulundan asılı olmayaraq obyektiv formada mövcud olan və müəlliflik hüququnun obyekti sayılan yaradıcılıq fəaliyyətinin nəticəsi.

**2. Müqavilənin predmeti**

2.1. Müəllif bu Müqavilə ilə nəzərdə tutulan şərtlər daxilində öz əsər(lər)indən

______________________________________________________________

*(əsər(lər)in adı)*

istifadə üçün ________________________________________________

*(istifadə üsulunun adı)*

İstifadəçiyə __________________________________________ lisenziya verir.

*(müstəsna, yaxud qeyri-müstəsna)*

2.2. Hüquq(lar)ın verildiyi müddət və ərazi ______________________________________

__________________________________________________________________________________

__________________________________________________________________________________

2.3. İstifadəçi bu Müqavilə ilə nəzərdə tutulan şərtlər daxilində və müvafiq üsullarla əsər(lər)dən istifadə etməyi öhdəsinə götürür.

İstifadəçinin sifarişi ilə yaradılan əsərlərə görə əlavə haqq ödənilir və Müəllif və İstifadəçi arasında müqavilə qaydasında rəsmiləşdirilir (bax: Müəllif müqaviləsinə Əlavə (sifarişlə yaradılan əsərlər üçün).

**3. Maliyyə şərtləri və ödəniş qaydaları**

3.1. İstifadəçi bu müqavilə ilə verilən lisenziyaya uyğun olaraq əsər(lər)dən istifadəyə görə _________________________________________________________________

__________________________________________________________________________________

qonorar ödəməyi öhdəsinə götürür.

3.2. Ödəniş qaydası ____________________________________________________________

3.3. Ödəniş müddəti ___________________________________________________________

__________________________________________________________________________________

*(müəllif müqaviləsi üzrə müəllif qonorarı əsərdən müvafiq üsulla istifadəyə görə alınan gəlirdən faizlə, əgər əsərin xarakteri və ya istifadə xüsusiyyətləri ilə bağlı gəliri müəyyən etmək mümkün deyilsə, onda müqavilədə konkret məbləğ göstərilməklə və ya başqa şəkildə müəyyən edilir.)*

**4. Tərəflərin mühüm hesab etdiyi şərtlər**

Müəllif və İstifadəçi aşağıdakı mühüm şərtləri qeyd etmək qərarına gəlirlər:

__________________________________________________________________________________

__________________________________________________________________________________

__________________________________________________________________________________

**5. Digər şərtlər**

5.1. İstifadəçi müəllifin soyadı, adı, atasının adı və adları dəqiq müəyyən edilmiş əsər(lər)indən istifadə etməyi öhdəsinə götürür.

5.2. Əsərlərin kütləvi ifasına, o cümlədən radio və televiziyada, mexaniki, maqnit və s. yazılma ilə surətçıxarmaya, reprosurətçıxarmaya və başqa istifadə üsullarına görə müəllif qonorarının yığılması qanunvericiliyə görə müəllif(lər)in qanuni mənafelərini təmsil edən əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilat tərəfindən həyata

keçirilir. Belə təşkilat yaradılana qədər həmin funksiyanı Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi yerinə yetirir.

5.3. Müəllif qonorarının ödəyicisi olan bütün istifadəçi təşkilatlar müəllif(lər)dən və ya onların hüquqi varislərindən, yaxud müəlliflərin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatdan icazə (lisenziya) almalıdırlar. Belə təşkilat yaradılana qədər həmin funksiyanı Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi yerinə yetirir.

5.4. Bu Müqavilə əsər(lər)dən burada nəzərdə tutulmayan istifadə üsullarına aid edilmir.

5.5. Bu Müqavilə ilə nəzərdə tutulmayan, lakin onun predmetinə aid olan şərtlər mövcud qanunvericiliklə nizamlanır.

5.6. Bu Müqaviləyə edilən əlavə və dəyişikliklər o halda qüvvədə sayılır ki, onlar yazılı şəkildə tərtib edilir və tərəflərin imza və möhürləri ilə təsdiqlənir.

5.7. Müəllif müqaviləsində əsərdən istifadənin üsulları haqqında şərt olmadıqda (müəllif müqaviləsi üzrə verilən konkret hüquqlar), müqavilə onu bağlayan tərəflərin istəklərinin əldə edilməsi üçün vacib hesab etdikləri istifadə üsuluna görə bağlanmış hesab oluna bilər.

5.8. Müəllif müqaviləsində istifadənin müddəti haqqında şərt olmadıqda həmin müqavilə bağlandığı tarixdən beş il keçəndən sonra müəllif tərəfindən pozula bilər, həm də istifadəçi müqavilənin pozulması haqqında altı ay əvvəldən yazılı xəbərdar edilməlidir.

5.9. Müəllif müqaviləsində ərazi haqqında şərt olmadıqda, müqavilə üzrə nəzərdə tutulan hərəkətlər Azərbaycan Respublikasının ərazisi ilə məhdudlaşdırılır.

5.10. Müəllif müqaviləsi üzrə verilən hüquqlar, müqavilədə başqa hal nəzərdə tutulmadıqda, qeyri-müstəsna hüquqlar olur.

5.11. Müqavilənin qüvvədə olma müddəti dayandırıldıqda onun ödənişlər üzrə müddəaları İstifadəçi müqavilədən doğan bütün ödənişləri yerinə yetirənədək qüvvədə qalır.

5.12. Tərəflərdən birinin təşkilati-hüquqi formasında, fəaliyyətinin xarakterində dəyişikliklər olarsa və ya tərəflərdən biri fəaliyyətini dayandırarsa, o, vaxtında bu barədə digərini yazılı surətdə xəbərdar etməlidir.

5.13. Müəllif və İstifadəçi arasında bu Müqavilədə nəzərdə tutulan məsələlərlə bağlı mübahisələr mövcud qanunvericiliyə uyğun şəkildə həll edilir.

**6. Sənədləşmə**

6.1. Müqavilə şərtlərinin yerinə yetirilməsinə nəzarət və müəlliflik hüquqlarının

pozulmasının qarşısının alınması üçün müqavilə Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçirilməlidir.

6.2. Bu Müqavilə 2 nüsxədə imzalanır və tərəflərin hər birində bir nüsxə olmaqla saxlanılır.

**Tərəflərin ünvanı və bank rekvizitləri:**

Müəllif ____________________________________________

Ünvanı ____________________________________________

____________________________________________

Telefon ____________________________________________

İstifadəçi ____________________________________________

Ünvanı ____________________________________________

____________________________________________

Telefon ____________________________________________

H/Hesabı ____________________________________________

____________________________________________

Müəllif ____________________ İstifadəçi ____________________

*(imza)* *(imza)*

"____" ______________________199____ il

Müəllif müqaviləsinə
ƏLAVƏ
(sifarişlə yaradılan əsərlər üçün)

**Sifariş müqaviləsi**

Öz fəaliyyətini mövcud qanunvericilik və ________________________________________

________________________________________________________________________________

*(nizamnamə, əsasnamə, şəhadətnamə, qeydiyyat nömrəsi və tarixi)*

əsasında həyata keçirən __________________________________________________________

________________________________________________________________________________

*(idarə, müəssisə, təşkilatın adı)*

bundan sonra "İstifadəçi" (Sifarişçi) adlanacaq, onun şəxsində ______________

________________________________________________________________________________

*(müqaviləni imzalayan şəxsin vəzifəsi, soyadı, adı və atasının adı)*

bir tərəfdən və müəllif(lər) və ya müəlliflik hüquqlarının digər sahibləri, bundan sonra "Müəllif" adlanacaq, onun şəxsində _______________________________

________________________________________________________________________________

*(müqaviləni imzalayan şəxsin vəzifəsi, soyadı, adı və atasının adı)*

digər tərəfdən aşağıdakılar haqqında müqavilə bağladılar:

## 1. Müqavilənin predmeti

1.1. Müəllif(lər) bu Müqavilə ilə nəzərdə tutulan şərtlər daxilində əsəri yaratmağı və istifadə üçün İstifadəçiyə (Sifarişçiyə) təqdim etməyi öhdəsinə götürür.

1.2. İstifadəçi (Sifarişçi) əsəri istifadə üçün qəbul edəndən sonra müəllif(lər)ə _____________________________________________ manat miqdarında müəllif qonorarı ödəməyi öhdəsinə götürür.

## 2. Ödəniş qaydaları

2.1. Ödəniş qaydası ______________________________________________________________

2.2. Ödəniş müddəti _____________________________________________________________

## 3. Tərəflərin mühüm hesab etdiyi şərtlər

___________________________________________________________________

___________________________________________________________________

___________________________________________________________________

**Tərəflərin ünvanı və bank rekvizitləri:**

Müəllif ____________________________________________________________

Ünvanı ____________________________________________________________

___________________________________________________________________

H/Hesabı __________________________________________________________

___________________________________________________________________

Telefon ____________________________________________________________

İstifadəçi (Sifarişçi) ___________________________________________________

Ünvanı ____________________________________________________________

___________________________________________________________________

H/Hesabı __________________________________________________________

___________________________________________________________________

Telefon ____________________________________________________________

Müəllif ____________________ İstifadəçi (Sifarişçi) ____________________

*(imza)* *(imza)*

"____" ________________________199____ il

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1997-ci il 2 may tarixli 38 nömrəli qərarına
**Əlavə 3**

**Ədəbiyyat və incəsənət əsərlərinin kütləvi ifasına görə müəllif qonorarının minimum miqdarı**

| № | Əsərlərin növləri | Bir əsərin, yaxud proqramın kütləvi |
|---|---|---|

| | | ifasına görə biletlərin satışından əldə edilən ümumi pul yığımından faizlə | |
|---|---|---|---|
| | | **çoxpərdəli əsərlər** | **birpərdəli əsərlər** |
| **I.** | **Orijinal dram əsərləri** | | |
| 1. | Pyeslər | | |
| | Nəsrlə: | 15 | 7 |
| | onlardan: | | |
| | pyesin müəllifinə | 9 | 3 |
| | quruluşçu rejissora | 3 | 2 |
| | quruluşçu rəssama | 3 | 2 |
| | Nəzmlə: | 16 | 8 |
| | onlardan: | | |
| | pyesin müəllifinə | 10 | 4 |
| | quruluşçu rejissora | 3 | 2 |
| | quruluşçu rəssama | 3 | 2 |
| 2. | Uşaqlar üçün pyes | | |
| | Nəsrlə: | 15 | 7 |
| | onlardan: | | |
| | pyesin müəllifinə | 9 | 3 |
| | quruluşçu rejissora | 3 | 2 |
| | quruluşçu rəssama | 3 | 2 |
| | Nəzmlə: | 16 | 8 |
| | onlardan: | | |
| | pyesin müəllifinə | 10 | 4 |

| | | | |
|---|---|---|---|
| | quruluşçu rejissora | 3 | 2 |
| | quruluşçu rəssama | 3 | 2 |
| 3. | Kuklalar vasitəsi ilə ifa edilən pyeslər | | |
| | Nəsrlə: | 16 | 8 |
| | onlardan: | | |
| | pyesin müəllifinə | 8 | 3 |
| | quruluşçu rejissora | 3 | 2 |
| | quruluşçu rəssama | 5 | 3 |
| | Nəzmlə: | 17 | 9 |
| | onlardan: | | |
| | pyesin müəllifinə | 9 | 4 |
| | quruluşçu rejissora | 3 | 2 |
| | quruluşçu rəssama | 5 | 3 |
| **II.** | **Səhnələşdirmələr** | | |
| 4. | Müəlliflik hüququ ilə qorunmayan əsərlərin səhnələşdirilməsi: | 12 | 7 |
| | onlardan: | | |
| | səhnələşdirmənin müəllifinə | 4 | 2 |
| | ədəbi əsərin tərcüməçisinə (ədəbi əsərin tərcüməçisinin müəlliflik hüququ ilə qorunduğu hallarda) | 2 | 1 |
| | quruluşçu rejissora | 3 | 2 |
| | quruluşçu rəssama | 3 | 2 |
| 5. | Müəlliflik hüququ ilə qorunan əsərlərin səhnələşdirilməsi: | 15 | 8,5 |
| | onlardan: | | |
| | ədəbi əsərin müəllifinə | 3 | 1,5 |

| | | | |
|---|---|---|---|
| | səhnələşdirmənin müəllifinə | 4 | 2 |
| | ədəbi əsərin tərcüməçisinə (ədəbi əsərin tərcüməçisinin müəlliflik hüququ ilə qorunduğu hallarda) | 2 | 1 |
| | quruluşçu rejissora | 3 | 2 |
| | quruluşçu rəssama | 3 | 2 |
| **III.** | **Tərcümə olunmuş dram əsərləri** | | |
| 6. | Müəlliflik hüququ ilə qorunmayan pyeslərin tərcüməsi | | |
| | Nəsrlə: | 10,5 | 6 |
| | onlardan: | | |
| | tərcüməçiyə | 4,5 | 2 |
| | quruluşçu rejissora | 3 | 2 |
| | quruluşçu rəssama | 3 | 2 |
| | Nəzmlə: | 11 | 6,5 |
| | onlardan: | | |
| | tərcüməçiyə | 5 | 2,5 |
| | quruluşçu rejissora | 3 | 2 |
| | quruluşçu rəssama | 3 | 2 |
| 7. | Müəlliflük hüququ ilə qorunan pyeslərin tərcüməsi | | |
| | Nəsrlə: | 15 | 8 |
| | onlardan: | | |
| | pyesin müəllifinə | 4,5 | 2 |
| | tərcüməçiyə | 4,5 | 2 |
| | quruluşçu rejissora | 3 | 2 |
| | quruluşçu rəssama | 3 | 2 |
| | Nəzmlə: | 16 | 9 |

| | | | |
|---|---|---|---|
| | onlardan: | | |
| | pyesin müəllifinə | 5 | 2,5 |
| | tərcüməçiyə | 5 | 2,5 |
| | quruluşçu rejissora | 3 | 2 |
| | quruluşçu rəssama | 3 | 2 |
| 8. | Müəlliflik hüququ ilə qorunan səhnələşdirmələrin tərcüməsi: | 16 | 9 |
| | səhnələşdirmənin müəllifinə | 3 | 1,5 |
| | səhnələşdirmənin tərcüməçisinə | 3 | 1,5 |
| | ədəbi əsərin müəllifinə | 2 | 1 |
| | ədəbi tərcümənin müəllifinə (səhnələşdirilmiş ədəbi əsərin tərcüməsinin müəlliflik hüququ ilə qorunduğu hallarda) | 2 | 1 |
| | quruluşçu rejissora | 3 | 2 |
| | quruluşçu rəssama | 3 | 2 |
| 9. | Opera | 19 | 10,5 |
| | onlardan: | | |
| | bəstəkara | 8 | 4 |
| | libretto müəllifinə | 4 | 2 |
| | xoreoqrafa | 1 | 0,5 |
| | quruluşçu rejissora | 3 | 2 |
| | quruluşçu rəssama | 3 | 2 |
| 10. | Librettosu tərcümə olunmuş opera: | 19 | 10,5 |
| | onlardan: | | |
| | bəstəkara | 8 | 4 |
| | libretto müəllifinə | 2 | 1 |
| | libretto tərcüməçisinə | 2 | 1 |

| | | | |
|---|---|---|---|
| | xoreoqrafa | 1 | 0,5 |
| | quruluşçu rejissora | 3 | 2 |
| | quruluşçu rəssama | 3 | 2 |
| 11. | Balet: | 18 | 9,5 |
| | onlardan: | | |
| | bəstəkara | 8 | 4 |
| | libretto müəllifinə | 2 | 1 |
| | xoreoqrafa | 5 | 2,5 |
| | quruluşçu rəssama | 3 | 2 |
| 12. | Operetta, musiqili komediya, müzikl: | 19 | 10,5 |
| | onlardan: | | |
| | bəstəkara | 8 | 4 |
| | libretto müəllifinə | 2 | 1 |
| | xoreoqrafa | 1 | 0,5 |
| | quruluşçu rejissora | 3 | 2 |
| | quruluşçu rəssama | 3 | 2 |
| 13. | Mətni tərcümə olunmuş operetta, musiqili komediya, müzikl: | 19 | 10,5 |
| | onlardan: | | |
| | bəstəkara | 5 | 2 |
| | libretto müəllifinə | 2,5 | 1 |
| | libretto tərcüməçisinə | 2,5 | 1 |
| | xoreoqrafa | 1 | 0,5 |
| | quruluşçu rejissora | 3 | 2 |
| | quruluşçu rəssama | 3 | 2 |
| 14. | Dram əsərlərini müşayət edən musiqi | 1 (musiqi ilə müşayiət olunan hər pərdəyə | |

| | | |
|---|---|---|
| | | görə) |
| **Qeyd:**<br><br>1. Quruluşçu rəssam dram, musiqili, musiqili-dram, uşaq və gənclər üçün tamaşalarda dekorasiya və geyimlərin müəllifidir.<br><br>2. İstifadə olunan əsərin tərcüməsi müəlliflik hüququ ilə qorunan aralıq tərcümədən (orijinaldan edilməyən tərcümə) edilmişdirsə, aralıq tərcümənin müəllifinə çoxpərdəli əsərlər üçün 1 faiz, birpərdəli əsərlər üçün 0,5 faiz miqdarında əlavə qonorar hesablanır. | | |
| **IV.** | **Konsert, estrada, sirk və rəqs proqramları** | |
| 15. | Simfonik, vokal-simfonik, kamera və xalq çalğı alətləri üçün əsərlərdən ibarət konsert | 8 (bütün proqrama görə) |
| 16. | 15-ci bənddə göstərilənlərdən başqa digər konsertlər, o cümlədən estrada konserti, teatrlaşdırılmış konsertlər, yeni il, yolka və Novruz bayramı şənlikləri, ballar, şoular, festivallar, varyete proqramları və s. | 5 (bütün proqrama görə) |
| 17 | Sirk proqramı | 1 (bütün proqrama görə) |
| 18 | Sirk proqramında bir müstəqil şöbədən az olmamaqla pantomim, feyeriya, baletin ifasına görə | 1 (3 saylı əlavənin 17-ci bəndində nəzərdə tutulan miqdardan asılı olmayaraq) |
| 19 | Sirk proqramında bir müstəqil şöbədən az olmayan süjetli attraksionun kütləvi ifasına görə | 1 (3 saylı əlavənin 17-ci bəndində nəzərdə tutulan miqdardan asılı olmayaraq) |
| 20. | Sirk proqramında xüsusi olaraq pantomim, feyeriya, balet və süjetli attraksionu müşayiət etmək üçün yazılmış bir müstəqil şöbədən az olmayan orijinal musiqinin ifasına görə | 0,5 (3 saylı əlavənin 17, 18, 19-cu bəndlərində nəzərdə tutulan miqdarlardan asılı olmayaraq hər şöbə üçün) |
| 21. | Musiqili əsərlərin istər artist-ifaçıların, istərsə də mexaniki yazma şəklində rəqs meydançalarında və diskotekalarda ifasına görə | 3 (bütün proqrama görə) |
| 22. | Kütləvi tamaşa yerlərində ifa olunan sirk tamaşalarına görə | 2 (bütün proqrama görə) |

| | | |
|---|---|---|
| 23. | Kütləvi tamaşa yerlərində ifa olunan estrada və teatrlaşdırılmış konsert proqramına görə | 3 (bütün proqrama görə) |
| 24. | Kütləvi tamaşa yerlərində idman yarışlarını və nümunəvi çıxışları müşayiət etmək üçün ifa olunan musiqiyə görə | 1 (bütün proqrama görə) |
| 25. | Ümumi süjet xətli estrada tamaşası, o cümlədən teatrlaşdırılmış yeni il yolka və Novruz bayramı şənlikləri | 5 (bütün proqrama görə) |
| 26. | Kütləvi tamaşa yerlərində ifa olunan ümumi süjet xətli estrada tamaşası | 3 (bütün proqrama görə) |
| 27. | Xoreoqrafiya konserti | 6 (bütün proqrama görə) |
| 28. | Qarışıq vokal-xoreoqrafiya konserti | 6 (bütün proqrama görə) |
| 29. | Əsərlərin radio və televiziya vasitəsi ilə efirlə kütləvi bildirişinə görəvii[7] | 1 (ümumi gəlirin məbləğindən) |
| 30. | Əsərlərin kabel televiziyası vasitəsi ilə kütləvi bildirişinə görə | 3 (ümumi gəlirin məbləğindən) |

**Qeyd:**

1. Əsərin ümumi süjet xətli estrada tamaşası növünə aid edilməsi Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin səlahiyyətlərinə daxildir.viii[8]

2. Stadionlar, idman sarayları, ippodromlar, 3000-dən artıq oturma yeri olan açıq və bağlı meydançalar kütləvi tamaşa yeri sayılır. Tamaşaçılar üçün müəyyən sayda oturma yeri olmayan meydançalar (parklar və s.) o vaxt kütləvi tamaşa yerinə bərabər tutulur ki, həmin tamaşa, yaxud proqram üçün 3000-dən artıq giriş bileti satılsın.

3. Əsərlərin 21-ci bənddə nəzərdə tutulan ifası pulsuz girişdə həyata keçirilirsə, onda müəllif qonorarı ifaçılara çatacaq əmək haqqından 5 faiz miqdarında olmaqla hesablanır.

| | | |
|---|---|---|
| 31. | Mətnli, yaxud mətnsiz musiqili əsərlərin tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq bütün klublarda, barlarda, gecə barlarında, kafelərdə, restoranlarda, kazinolarda və digər ictimai yerlərdə (istər artist-ifaçıların ifasında, istərsə də mexaniki yazma şəklində) kütləvi ifasına görə (toy mərasimləri və konsert tədbirləri istisna olmaqla) | 16 (minimum əmək haqqının misli ilə) |

| | | |
|---|---|---|
| 32. | Mətnli, yaxud mətnsiz musiqili əsərlərin tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq şadlıq evlərində, kafelərdə və restoranlarda (toy mərasimlərində) kütləvi ifasına görə | 6 (toy mərasimlərinin keçirildiyi hər gün üçün minimum əmək haqqının misli ilə) |
| **Qeyd:**<br>Musiqili əsərlərdən istifadəyə görə (mətnli və ya mətnsiz) giriş haqqı götürülməyən digər yerlərdə müəllif qonorarı hesablanarkən 31-ci bəndlə müəyyən edilən tarif dərəcəsi tətbiq edilir. | | |
| **V.** | **Videofilmlərin (videolentə yazılmış filmlərin) tamaşaçılar üçün pullu giriş olan yerlərdə nümayiş etdirilməsi** | |
| 33. | Bədii, elmi, elmi-populyar, fantastik və sənədli filmlərə və tamaşalara görə | 8 |
| | onlardan: | |
| | ssenari müəllifinə | 3 |
| | quruluşçu rejissora | 3 |
| | quruluşçu rəssama | 1 |
| | bəstəkara | 1 |
| 34. | Musiqili filmlərə görə | 8 |
| | onlardan: | |
| | ssenari müəllifinə | 2 |
| | quruluşçu rejissora | 2 |
| | quruluşçu rəssama | 1 |
| | bəstəkara | 3 |
| 35. | Film-balet, operetta, musiqili komediya, müziklə görə | 8 |
| | onlardan: | |
| | ssenari müəllifinə | 1 |
| | quruluşçu rejissora | 2 |
| | bəstəkara | 2 |

| | | |
|---|---|---|
| | xoreoqrafa | 2 |
| | quruluşçu rəssama | 1 |
| 36. | Mətnli və ya mətnsiz musiqili əsərlərdən audiovizual əsərlərin (kino-tele-videofilmlərin) nümayişi zamanı istifadəyə görə | 2 (bütün proqrama görə) |

**Qeyd:**

1. Videotekalar, videosalonlar, videozallar və videofilmləri nümayiş etdirən digər fiziki və hüquqi şəxslər mülkiyyət formasından asılı olmayaraq müəllif qonorarı ödəyirlər.

2. Müəllif qonorarının ödəyiciləri videofilmləri müəyyən olunmuş qaydada qeydiyyatdan keçirməli, hər bir əsərdən istifadəyə görə əldə edilən gəlirin dəqiq uçotunu aparmalıdırlar. Müəllif qonorarı ödəməklə yanaşı, ödəyicilər Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinə hesabat dövründə nümayiş etdirilən filmlərin siyahısını (ayrı-ayrılıqda hər birindən istifadəyə görə əldə edilən gəlirin miqdarını göstərməklə), habelə Azərbaycan müəlliflərinin ilk dəfə nümayiş etdirilən filmlərinin pasportlarının surətini təqdim etməlidirlər.

3. Videokassetlərdə yazılmış konsert, sirk və rəqs proqramlarının, dram və musiqili-dram tamaşalarının nümayiş etdirilməsinə görə müəllif qonorarı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 2 may tarixli 38 nömrəli qərarı ilə həmin əsərlərin kütləvi ifasına görə müəyyən olunmuş tarif dərəcələrinə uyğun qaydada hesablanır.

---

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1997-ci il 2 may tarixli 38 nömrəli qərarına
**Əlavə 4**

## Ədəbiyyat və incəsənət əsərlərinin kütləvi ifasına görə müəllif qonorarının dərəcələrindən istifadə və müəllif qonorarının hesablanması və ödənilməsi qaydaları

1. Əsərlərin və proqramların kütləvi ifasına, kütləvi nümayişinə və radio-televiziya verilişləri vasitəsi ilə efir ifasına görə Azərbaycan dövlətinin ərazisində həmin fəaliyyət növü ilə məşğul olan tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq bütün hüquqi və fiziki şəxslər müəllif qonorarı ödəyirlər.

Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi müvəqqəti olaraq, əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar yaradılana qədər, əsərlərdən istifadəyə görə müəllif qonorarını bu qərarla müəyyən edilmiş minimum miqdarlara uyğun qaydada yığa bilər.

Əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların yaradılacağı halda müəlliflərin bu təşkilatlara verdikləri səlahiyyətlər həddində həmin təşkilatlarla

istifadəçilər arasında bağlanmış müqavilə əsasında müəllif qonorarının miqdarı minimum tarif dərəcələrindən az olmamaq şərti ilə sərbəst qiymətlərlə müəyyən edilə bilər.

Müəllif qonorarının bu Qərarla müəyyən edilmiş miqdarları minimum hədd sayılır və o zaman tətbiq edilir ki, istifadəçi və müəllif və ya onun hüquqi varisi, yaxud əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilat arasında bağlanmış müqavilədə başqa qiymət müəyyən edilməyib və qonorarın miqdarı tərəflərin mübahisəsinə səbəb olmur.

2. Müəlliflik hüququ ilə qorunan və qorunmayan əsərlərdən ibarət olan konsert, şou və s. proqramların (o cümlədən dram əsərlərini müşayiət edən musiqinin) kütləvi ifasına görə müəllif qonorarı 3 saylı Əlavədə nəzərdə tutulmuş tarif dərəcələrinə uyğun qaydada tam həcmdə hesablanır.

3. Dövlət varidatı elan edilən əsərlərə görə müəllif qonorarı 3 saylı Əlavədə göstərilən tarif dərəcələrinə uyğun qaydada tam miqdarda hesablanır. Hesablanmış məbləğ Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi tərəfindən yığılır və bütövlükdə dövlət büdcəsinə köçürülür.ix[9]

4. Müəlliflik hüququ ilə qorunmayan, habelə müəlliflik hüququ dövlət tərəfindən alınan əsərlərə görə hesablanmış qonorar məbləği mövcud qanunvericiliyə müvafiq olaraq Azərbaycan Respublikasının dövlət büdcəsinə köçürülür.

5. Əgər opera, balet və operettanın musiqisi müəlliflik hüququ ilə qorunursa, libretto isə qorunmursa, yaxud əksinə, müəllif qonorarı yalnız müəlliflik hüququ ilə qorunan əsərə görə (musiqi və ya libretto) hesablanır.

6. Müəllif qonorarı hesablanarkən müəlliflik hüququ ilə qorunmayan əsərlərin siyahısına aşağıdakılar daxil edilir:

6.1. “folklor nümunələri” (ənənəvi mədəni nümunələr);x[10]

6.2. Vəfat etmiş müəlliflərin əsərləri:

a) vərəsələri olmadıqda;

b) qanunla müəyyən olunmuş qorunma müddəti keçdikdə;

6.3. Müəlliflik hüququnu qoruyan beynəlxalq müqavilə və razılaşmalarda iştirak etməyən ölkələrin vətəndaşlarının əsərləri.

7. Konsert, estrada və sirk proqramlarına görə musiqili əsərlərin artistlərin ifasında və ya mexaniki yazma şəklində səsləndirilməsindən asılı olmayaraq müəllif qonorarı hesablanır.

8. İki pərdədən az olmayan dram və musiqili-dram əsərləri çoxpərdəli sayılır. Pərdələrə bölünmə əlaməti olmayan əsərlərin çoxpərdəli hesab edilməsi müvafiq ekspert rəyi əsasında müəyyən edilir.

9. Səhnədə səsləndirilən mətnin yarıdan çoxu nəzmlə (heca, əruz və ya sərbəst şerlə) yazılmışdırsa, əsər nəzmlə yazılmış sayılır.

10. Pərdələrin sayı və nəzmlə mətnin həcmi əsərin ifasına icazə verilmiş xüsusi nüsxə əsasında müəyyən olunur.

11. Əgər tamaşanın proqramına bir neçə birpərdəli və ya birpərdəli və çoxpərdəli əsər daxil edilərsə, müəllif qonorarı hər bir əsər üçün ayrı-ayrılıqda müəyyən olunmuş tarif dərəcələrinə uyğun hesablanır.

Əgər tamaşanın proqramına bir neçə çoxpərdəli əsərdən birpərdədən az olmayaraq müstəqil şöbələr daxil edilərsə, bütöv proqrama görə müəllif qonorarı müvafiq çoxpərdəli əsərlər üçün müəyyən olunmuş həcmdə hesablanır.

12. Konsert proqramında ifa olunan bütöv şöbədən ibarət birpərdəli dram əsərinə görə müəllif qonorarı müvafiq əsərlər üçün müəyyən olunmuş miqdarda ayrıca hesablanır, konsertə görə isə müvafiq konsert proqramı üçün nəzərdə tutulan miqdarın yarısı həcmində müəllif qonorarı hesablanır.

Konsert proqramında ifa olunan çoxpərdəli əsərə görə müəllif qonorarı müvafiq əsərlər üçün müəyyən olunmuş miqdarda hesablanır, bundan başqa konsertə görə müvafiq konsert proqramı üçün nəzərdə tutulan miqdarın üçdə biri həcmində müəllif qonorarı hesablanır.

13. Uşaqlar üçün pyeslərə görə müəyyən edilmiş müəllif qonorarının tarif dərəcələri həm uşaq teatrlarında, həm də başqa teatrlarda ifa olunmuş pyeslərə münasibətdə eyni qaydada tətbiq edilir.

14. Bu Qərara 3 nömrəli Əlavənin 1—13-cü bəndləri ilə nəzərdə tutulan müəllif qonorarının tarif dərəcələri əsərin konsert kimi ifa olunduğu hallarda da tətbiq edilir.

15. Dekorasiyaların və geyimlərin müəllifləri ayrı-ayrı adamlar olduğu hallarda quruluşçu rəssam üçün hesablanmış məbləğin üçdə bir hissəsi geyimlərin müəllifinə, üçdə iki hissəsi dekorasiyaların müəllifinə ödənilir. Bununla birlikdə həmin məbləğin onların razılığı ilə başqa şəkildə bölünməsi istisna edilmir.

16. Dram əsərlərində musiqidən istifadəyə görə müəllif qonorarı musiqinin artistlərin ifasında, yaxud elektron və mexniki yazılma şəklində səsləndirilməsindən asılı olmayaraq hər pərdəyə görə ayrıca hesablanır. Əgər tamaşanın ayrı-ayrı pərdələri musiqisiz göstərilirsə, yaxud müəlliflik hüququ ilə qorunmayan musiqi ilə müşayiət olunursa, həmin pərdələrə görə müəlliflik qonorarı hesablanır.

17. Əgər opera, balet və ya operettanın librettosu müəlliflik hüququ ilə qorunan başqa bir ədəbi əsərin əsasında yazılmışdırsa, libretto üçün hesablanmış müəllif qonorarının 40 faizi həmin əsərin müəllifinə ödənilir.

18. Konsert proqramında estrada əsərləri ilə yanaşı, heç olmasa bir böyük simfonik və ya vokal-simfonik əsər (simfoniya, oratoriya, kantata, simfonik poema, üvertura və ya böyük formalı kamera əsərləri: trio, kvartet, kvintet, sonata) və ya xalq çalğı alətləri üçün çoxhissəli əsərlər ifa olunursa, belə proqrama görə müəllif

qonorarı, bu 3 nömrəli Əlavənin 15-ci bəndinə uyğun qaydada hesablanır. Yığma konsert proqramı kiçik formalı simfonik, vokal-simfonik və kamera əsərlərindən, xalq çalğı alətləri üçün əsərlərdən və digər (ədəbi, estrada və b.) əsərlərdən təşkil edilərsə, belə proqrama görə müəllif qonorarı 3 nömrəli Əlavənin 16-cı bəndinə uyğun qaydada hesablanır.

Bu bəndlə müəyyən edilmiş qaydalar xeyriyyə məqsədi ilə təşkil edilmiş konsert proqramına da tətbiq edilir.

19. Yeni ilə yolka və Novruz bayramı şənliklərinin proqramına dram və ya musiqili-dram əsəri daxil edilərsə, belə əsərə görə müəllif qonorarı 4 nömrəli Əlavənin 11-ci bəndində qeyd edilən qaydalara əməl etməklə 3 nömrəli Əlavəli dram və musiqili-dram əsərləri üçün müəyyən olunmuş həcmdə hesablanır.

Əgər yeni il yolka və Novruz bayramı şənliklərinə satılan biletlərin qiymətinə hədiyyələrin dəyəri də daxil edilirsə, müəllif qonorarı hesablanarkən ümumi pul yığımından hədiyyələrin qiyməti çıxılır.

20. Sirk proqramı sirkdə ifa olunursa və ya ancaq sirk nömrələrindən tərtib edilirsə, belə proqrama görə müəllif qonorarı 3 nömrəli Əlavənin 17-ci bəndinə uyğun qaydada hesablanır. Yığma proqramın tərkibində sirk çıxışlarının olduğu qalan bütün hallarda 3 nömrəli Əlavənin 18-ci bəndi tətbiq edilir.

21. Kukla-marianet tamaşalarının (ədəbi mətni olmayan) və orijinal janr artistlərinin (gözbağlayıcıların, psixoloq-eksperimentçilər və s.) çıxışlarını müşayiət edən musiqiyə görə müəllif qonorarı bütöv tamaşaya və ya konsertə görə yığılan ümumi pul məbləğinin 0,5 faizi həcmində hesablanır.

Orijinal janr ustalarının (gözbağlayıcılar, psixoloq-eksperimentçilər) ədəbi mətnlə müşayiət olunan çıxışlarına görə ədəbi mətnin müəllifinə ümumi pul yığımının 0,5 faizi həcmində müəllif qonorarı hesablanır.

22. Mahnı və rəqslərdən ibarət qarışıq konsertlər estrada konsertlərinə bərabər tutulur.

23. Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən və konsert, şou, festival, müsabiqə, tamaşa və s. mədəni-kütləvi tədbirləri təşkil edən mülkiyyət formasından və tabeçiliyindən asılı olmayaraq bütün fiziki və hüquqi şəxslər, həmçinin açıqlanmış ədəbiyyat və incəsənət əsərlərini radio və televiziya verilişləri vasitəsi ilə təkrarlayan (surətini çıxaran) təşkilatlar əsərlərin kütləvi ifasına görə müəllif qonorarının ödəyiciləri sayılırlar.

24. Əsərlərin kütləvi ifasına görə müəllif qonorarı aşağıdakılar istisna olmaqla, tamaşaçılar (dinləyicilər) üçün giriş istər pullu, istərsə də pulsuz olan bütün hallarda hesablanır:

a) tamaşaçılar (dinləyicilər) üçün pulsuz giriş zamanı əsərlərin kütləvi ifası muzeylərdə, lektoriyalarda, kitabxanalarda və təhsil ocaqlarında həyata keçirilərsə;

b) əsərin kütləvi ifası tamaşaçılar (dinləyicilər) üçün pulsuz həyata keçirilirsə və ifaçı, yaxud ifaçılar kollektivi üçün hər hansı bir pul ödənişi nəzərdə tutulmursa.

25. Əsərlərin kütləvi ifasına görə müəllif qonorarı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 may 1997-ci il tarixli 38 nömrəli qərarına 3 nömrəli Əlavədə təsdiq edilmiş qaydada hesablanır:

a) ümumi pul yığımının miqdarından — biletlərin satışından əldə olunan gəlirin ödəyicinin kassasına daxil olduğu hallarda;

b) təminatlı ödənişin miqdarından — artistlərin çıxışına görə təminatlı ödəniş haqqında ödəyici ilə sifarişçi arasında müqavilə bağlandığı hallarda. Müqaviləyə görə təminatlı ödəniş məbləği ümumi pul yığımının məbləğinə bərabər tutulur;

v) ifaçılar üçün hesablanmış ödənişin (əmək haqqının) miqdarından — ödəyicinin tamaşaçılardan giriş haqqı götürmədiyi və müqavilə üzrə təminatlı ödəniş verilməyən hallarda.

**Qeyd:**

Sifarişçi (səhnənin sahibi) ilə müqaviləyə əsasən tamaşa və ya konsert üçün təminatlı ödəniş haqqı hesablayarkən təşkilatlar (onların adından kollektiv çıxış edir) çıxışın bilavasitə dəyəri və onunla əlaqədar digər xərclərdən başqa, müəllif qonorarını da nəzərdə tutmalıdırlar.

26. Konsert təşkilatları sisteminə daxil olmayan bütün professional teatrlar, müstəqil özəl teatr və ifaçı kollektivlər, habelə daimi sirklər, öz repertuarlarına daxil olan tamaşa və konsertlərin həm öz daimi, həm də başqa təşkilatlara məxsus səhnələrdə kütləvi ifasına görə müəllif qonorarını mərkəzləşdirilmiş qaydada, öz bazalarının məskunlaşdığı yerdə ödəyirlər. Səyyar və kukla teatrlar, ifaçı kollektivlər yerli filarmoniyalar və konsert-estrada şöbələri ilə müqaviləyə əsasən çıxış etdikləri hallarda onların müəllif qonorarını tədbiri təşkil edin filarmoniya və konsert-estrada şöbələri ödəyirlər.

27. Filarmoniyalar və konsert-estrada şöbələri özünün solist, kollektiv və briqadaları, səyyar və kukla teatrları, səyyar sirkləri, həmçinin digər təşkilatlara aid olan, lakin filarmoniya və ya konsert-estrada şöbələri ilə müqaviləyə əsasən çıxış edən konsert və sirk qrupları, solistlər, briqada və ansambllar tərəfindən əsərlərin kütləvi ifasına görə müəllif qonorarını mərkəzləşdirilmiş qaydada yerləşdiyi yerdə ödəyirlər.

Əgər filarmoniyanın (konsert-estrada şöbəsinin) kollektivi və ya briqadası digər filarmoniya (konsert-estrada şöbəsi) ilə müqaviləyə əsasən çıxış edirsə, müəllif qonorarının ödəyicisi o konsert təşkilatı hesab olunur ki, bağlanmış müqaviləyə əsasən həmin çıxışın təşkilatçısı sayılır.

28. Klublar, mədəniyyət evləri və sarayları, zabitlər evləri, parklar, bağlar və s. onlara məxsus səhnədə özünün professional ifaçı kollektivləri, hərbi hissələrin ifaçı

kollektivləri və əmək sazişinə görə dəvət olunan ifaçı kollektivləri tərəfindən əsərlərin kütləvi ifasına görə müəllif qonorarı ödəyirlər.

Əgər klubda, mədəniyyət evi və ya sarayda və s. əsərlərin kütləvi ifası öz ifaçı kollektivləri və ya dəvət olunmuş professional ifaçı kollektivləri (teatrlar, özfəaliyyət ifaçı kollektivləri, daimi sirklər, həmçinin filarmoniya və konsert-estrada şöbələrinin briqadalarından başqa) tərəfindən həyata keçirilsə, müəllif qonorarı bilet satışından əldə olunan məbləğ kassasına daxil olan klub, mədəniyyət evi və sarayı tərəfindən ödənilir. Tamaşaçılar üçün pulsuz giriş zamanı müəllif qonorarını ifaçı kollektivin mənsub olduğu təşkilat müqaviləyə əsasən səhnə sahibindən aldığı təminatlı ödənişdən ödəyir.

29. Sirk kollektivlərinin filarmoniya və konsert-estrada şöbələri ilə müqavilədənkənar həyata keçirdiyi kütləvi çıxışlarına görə müəllif qonorarı kollektivin daxil olduğu təşkilat tərəfindən mərkəzləşdirilmiş qaydada ödənilir. Səyyar sirklər, filarmoniya və ya konsert-estrada şöbəsi ilə müqavilə üzrə çıxışlar istisna olmaqla, müəllif qonorarını müstəqil şəkildə çıxış etdiyi yerdə ödəyirlər.

30. Kütləvi səhnələrdə həyata keçirilən teatrlaşdırılmış estrada, sirk nümayişləri və konsertlərə görə müəllif qonorarı biletlərin satışından əldə olunan ümumi gəlirin kassasına daxil olduğu təşkilat tərəfindən ödənilir.

31. Giriş üçün ayrıca haqq yığılmayan səhnədə (tamaşadan qabaq və sonra və ya antraktlarda teatrın foyesi, kinoteatrların foyesi, kafe, restoranlar, parklarda, bağ və stadionlarda açıq meydançalar və s.) əsərlərin kütləvi ifasına görə müəllif qonorarı ya ifaçıların qazancının miqdarından (əgər bu qazanc ifaçılara bilavasitə meydançanın rəhbərliyi tərəfindən verilirsə), ya da meydança rəhbərliyi ilə ifaçıları təqdim edən təşkilat arasında bağlanmış müqavilə məbləğindən hesablanır. Belə halda müəllif qonorarını ifaçı kollektivi təqdim etmiş təşkilat ödəyir.

32. Əsərlərin kütləvi ifasına, o cümlədən radio və televiziyada, mexaniki, maqnit və s. yazılma üsulu ilə surətçıxarmaya, reprosurətçıxarmaya və başqa istifadə üsullarına görə müəllif qonorarının yığılması qanunvericiliyə görə müəllif(lər)in qanuni mənafelərini təmsil edən əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilat tərəfindən həyata keçirilir. Belə təşkilat yaradılana qədər həmin funksiyanı Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi yerinə yetirir.

33. Müəllif qonorarının ödəyicisi olan bütün istifadəçi təşkilatlar müəllif(lər)dən və ya onların varislərindən, yaxud müəlliflərin əmlak hüquqlarını kollektiv əsasla idarə edən təşkilatdan icazə (lisenziya) almalıdırlar. Belə təşkilat yaradılana qədər həmin funksiyanı Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi yerinə yetirir.

34. Müəllif qonorarının bütün ödəyiciləri ifa olunan əsərlərin dəqiq qeydiyyatını aparmalı və Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin nümayəndəsinə faktiki ifa olunmuş əsərlərin adı, onların müəlliflərinin adı, soyadı və atasının adı (o cümlədən musiqinin, mətn və tərcümənin müəllifləri) haqqında,

həmçinin yığılan pulun məbləği (pullu girişdə), müqavilə üzrə təminatlı ödənişin məbləği (pulsuz giriş), rəqs meydançalarında musiqinin ifası zamanı isə ifaçılara çatacaq əmək haqqının miqdarı barədə məlumat verməlidirlər.

35. Hesabat ayı başa çatandan sonra ödəyici 10 gün müddətində əsərlərdən istifadəyə görə müəllif qonorarının miqdarını özündə əks etdirən hesab vərəqlərini və ifa proqramını tələb olunan qaydada 3 nüxsədə tərtib edib, imza və möhürlə təsdiqləyəndən sonra onun 1 nüsxəsini özündə saxlamalı, iki nüsxəsini isə Müəllif Hüquqları Agentliyinin nümayəndəsinə təqdim etməlidir. Hesab vərəqələrinin və ifa proqramının düzgün tərtib edilməməsinə və ya vaxtında təhvil verilməməsinə görə ödəyici təşkilatın rəhbərliyi mövcud qanunvericiliyə uyğun surətdə məsuliyyət daşıyır.

Konsert və digər yığma proqramda ifa olunan əsərlər və onların müəllifləri haqqında məlumatlar ifa proqramında təqdim olunursa, həmin sənəd ifa olunan proqrama görə məsul şəxs tərəfindən imzalanır, ödəyicinin möhürü ilə təsdiqlənir və hesab vərəqələri ilə birlikdə Müəllif Hüquqları Agentliyinin (onun şöbəsinin) müvəkkilinə verilir.

36. Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin əsərlərdən istifadəyə görə ödəyici təşkilatlardan yığdığı qonorarın müəlliflərə çatan hissəsi istisna olmaqla, qalan məbləğ bütövlükdə dövlət büdcəsinə köçürülür.

~~37. Ödəyici hesablanmış müəllif qonorarını iki ay müddətində Agentliyin hesabına köçürməzsə, məsələ məhkəmə orqanları vasitəsilə həll edilir.xi[11]~~

38. Ödəyici əsərlərdən istifadəyə görə müəllif qonorarının hesablanması ilə əlaqədar bütün sənədləri yoxlamaq üçün Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin (onun şöbəsinin) səlahiyyətli nümayəndəsinə təqdim etməlidir.

39. Mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün təşkilatçı ilə səhnə sahibi arasında bağlanmış icarə müqaviləsində müəllif qonorarının kimin ödəyəcəyi mütləq göstərilməlidir. Belə tədbirlərin təşkilatçısı mövcud qanunvericiliyə uyğun olaraq əsərlərdən müvafiq istifadəyə icazə (lisenziya) almaq barədə Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi ilə müqavilə bağlamalıdır.

---

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1997-ci il 2 may tarixli 38 nömrəli qərarına
**Əlavə 5**

## Ədəbiyyat və incəsənət əsərlərinin qrammofon vallarında, maqnitofon lentlərində, lazer disklərində, yığcam kassetlərdə və s. yazılmasına, həmçinin yazılmış nüsxələrin və audiovizual əsərlərin (videofilmlərin) kirayə verilməsinə görə müəllif qonorarının minimum miqdarı

| №№ | Əsərdən istifadənin növü | Müəllif qonorarının miqdarı (faizlə) |
|---|---|---|

| | | |
|---|---|---|
| 1. | Əsərlərin sənaye üsulu ilə elektron və mexaniki yazılma şəklində surətinin çıxarılmasına (artırılmasına) görə | 8; — buraxılmış hər daşıyıcının (nüsxənin) topdansatış qiymətindən (bir daşıyıcıda yazılmış əsərlərin sayından asılı olmayaraq) |
| 2. | Əsərlərin surətini fərdi sifariş əsasında elektron və mexaniki yazılma şəklində hazırlanmasına görə | 8; — hər nüsxənin hazırlanmasına görə alınan gəlirdən |
| 3. | Səsyazılmaların nüsxələrinin kirayəyə verilməsinə görə | 8; — nüsxələrin kirayəyə verilməsindən alınan gəlirdən |
| 4. | Audiovizual əsərlərin (videofilmlərin) kirayəyə verilməsinə görə | 5; — hər nüsxənin kirayəyə verilməsindən alınan gəlirdən |

**Qeyd:**

Əsərlərin elektron və mexaniki üsulla yazılması onların elektron və mexaniki qurğuların köməyi ilə səsləndirilməsinə imkan verən hər hansı bir formada (qramvallarda, maqnitofon lentlərində, lazer disklərində, yığcam kassetlərdə, videokassetlərdə və s.) qeydə alınmasıdır.

Topdansatış qiyməti bu Qərarda istehsalçının səsyazmanın hər nüsxəsi üçün müəyyən etdiyi qiymət hesab edilir. Gəlir sifarişçidən alınan məbləğdir.

---

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1997-ci il 2 may tarixli 38 nömrəli qərarına
**Əlavə 6**

**Ədəbiyyat və incəsənət əsərlərinin qrammofon vallarında, maqnitofon lentlərində, lazer disklərində, yığcam kassetlərdə və s. yazılmasına və yazılmış nüsxələrin, həmçinin audiovizual əsərlərin (videofilmlərin) kirayə verilməsinə görə müəllif qonorarının hesablanması**
**Qaydaları**

1. Müəllif qonorarının 5 nömrəli Əlavədə nəzərdə tutulmuş tarif dərəcələri minimum miqdar sayılır və o zaman tətbiq edilir ki, istifadəçi və müəllif və ya onun hüquqi varisi, yaxud əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilat arasında başqa qiymət müəyyən edilməyib və qonorarın miqdarı tərəflərin mübahisəsinə səbəb olmur. Həmin qonorarın yığılması qanunvericiliyə görə müəllif(lər)in qanuni mənafelərini təmsil edən əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilat tərəfindən həyata keçirilir. Belə təşkilat yaradılana qədər həmin funksiyanı Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi yerinə yetirir.

2. Əhali arasında yaymaq məqsədi ilə əsərləri elektron və mexaniki üsulla səsli daşıyıcılarda yazan, fərdi sifariş əsasında nüsxələrini hazırlayan, yazılmış nüsxələri və audiovizual əsərləri (videofilmləri) kirayəyə verən hüquqi və fiziki şəxslər (tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq) müəllif qonorarının ödəyiciləri sayılırlar.

Ödəyici müəllif qonorarını satışa buraxılan nüsxələrlə eyni vaxtda hər nüsxənin topdansatış qiymətindən ödəyir.

3. Müəllif qonorarının ödəyicisi olan bütün istifadəçilər müəllif(lər)dən və ya onların hüquqi varislərindən, yaxud müəlliflərin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlardan icazə (lisenziya) almalıdırlar. Belə təşkilat yaradılana qədər həmin funksiyanı Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi yerinə yetirir.

4. Müəllif qonorarının ödəyiciləri istifadə olunan əsərlərin dəqiq uçotunu aparmalı və müəllif qonorarı ilə bağlı bütün sənədləri yoxlamaq üçün Müəllif Hüquqları Agentliyinin nümayəndəsinə təqdim etməlidir.

Verilən məlumatların düzgün və tam olmasına görə məsuliyyət ödəyicinin üzərinə düşür.

**Qeyd:**

Əgər sənaye üsulu ilə buraxılan əsli daşıyıcılarda müəlliflik hüququ ilə qorunan əsərlərlə yanaşı, qorunmayan əsərlər də yazılmışdırsa, müəllif qonorarı hesablanarkən səslənmə müdddətinə uyğun şəkildə müəlliflik hüququ ilə qorunmayan əsərlərə görə müəllif qonorarı ümumi məbləğdən çıxılır.

---

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1997-ci il 2 may tarixli 38 nömrəli qərarına
**Əlavə 7**

**Təsviri-sənət əsərlərinin surətinin çıxarılmasına və dekorativ-tətbiqi sənət əsərlərindən sənayedə istifadə olunmasına görə müəllif qonorarının minimum miqdarı**

| № | Əsərlərin növləri | Müəllif qonorarının faizlə miqdarı (hər nüsxənin topdansatış qiymətindən) |
|---|---|---|
| 1. | Heykəltaraşlıq əsərləri: | |
| | 50 nüsxəyə qədər | 5 |
| | 51-dən 200 nüsxəyə qədər | 3 |
| | 200 nüsxədən yuxarı | 2 |

| | | |
|---|---|---|
| 2. | Sənaye məhsullarında (suvenirlər, qalanteriya məhsulları, toxuculuq və tikiş məhsulları və s.) təsviri sənət əsərlərindən, o cümlədən fotodan istifadəyə görə | 0,5 |
| 3. | Dekorativ-tətbiqi sənət əsərləri: | |
| | a) məişət təyinatlı dekorativ tətbiqi-sənət əsərləri (serviz, güldan, boşqab, fincan, çıraq, qabqacaq, kaşı, paltarasan, güzgü və s.) | 4 |
| | b) xırda və sadə dekorativ-tətbiqi və suvenir məmulatlar, xırda qalantereya əşyaları (o cümlədən döş nişanları, medallar, plaketlər, breloklar və s.) | 4 |
| | v) dekorativ-tətbiqi xarakter daşıyan məişət təyinatlı məmulatlar (futlyarlar, dekorativ kosmetika üçün flakonlar və s.) | 1 |
| | q) toxuculuq malları (süfrələr, örtüklər, dəsmallar və s.) | 7 |
| | ğ) parçalar | 2 (bir poqonmetrin topdansatış qiymətindən) |
| | d) trikotaj, toxunma məmulatları, geyim, krujeva (tor), naxışlı tikmə, ayaqqabı | 5 |
| | j) mebel | 1 |
| | z) oyuncaqlar | 1 |
| | e) bəzək, o cümlədən zərgərlik məmulatları: | |
| | - ucuz materiallardan | 1 |
| | - qiymətli materiallardan | 0,05 |
| | ə) divar kağızı (oboy), klyonka və s. | 1 (bir poqonmetrin topdansatış qiymətindən) |
| | i) xalçaçılıq məhsulları: | |
| | - maşınla toxunan | 1 |
| | - əllə toxunan | 4 |

| | | |
|---|---|---|
| | ı) toxuculuq qalanteriyası | 7 |
| Dekorativ-tətbiqi sənət əsərlərinə aid edilməsi üçün əsaslı xüsusiyyətləri olduqda. | | |

**Qeyd:**

Xırda plastik və miniatür heykəltaraşlıq əsərləri çoxaldılarkən heykəltaraşlıq əsərlərinə görə müəyyən edilmiş tarif dərəcələri tətbiq edilir.

---

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1997-ci il 2 may tarixli 38 nömrəli qərarına
**Əlavə 8**

**Təsviri-sənət əsərlərinin surətinin çıxarılmasına və dekorativ-tətbiqi sənət əsərlərindən sənayedə istifadə olunmasına görə müəllif qonorarının hesablanması qaydaları**

1. Təsviri-sənət əsərlərinin surətinin çıxarılmasına və dekorativ-tətbiqi sənət əsərlərindən sənayedə istifadə olunmasına görə müəllif qonorarı həmin əsərlərin yaradılmasına görə ödənilən qonorardan asılı olmayaraq ayrıca hesablanır.

2. Təsviri-sənət əsərlərini əhali arasında yaymaq məqsədi ilə surətini çıxartmaqla çoxaldan və dekorativ-tətbiqi sənət əsərlərindən sənayedə istifadə edən fiziki və hüquqi şəxslər (tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq) müəllif qonorarının ödəyiciləri sayılırlar.

3. Müəllif qonorarının 7 nömrəli Əlavədə nəzərdə tutulmuş tarif dərəcələri minimum miqdar sayılır və o zaman tətbiq edilir ki, istifadəçi və müəllif və ya onun hüquqi varisi, yaxud əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilat arasında başqa qiymət müəyyən edilməyib və qonorarın miqdarı tərəflərin mübahisəsinə səbəb olmur. Həmin qonorarın yığılması qanunvericiliyə görə müəllif(lər)in qanuni mənafelərini təmsil edən əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilat tərəfindən həyata keçirilir. Belə təşkilat yaradılana qədər həmin funksiyanı Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi yerinə yetirir.

4. Müəllif qonorarının ödəyicisi olan bütün istifadəçilər müəllif(lər)dən və ya onların hüquqi varislərindən, yaxud müəlliflərin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatdan icazə (lisenziya) almalıdırlar. Belə təşkilat yaradılana qədər həmin funksiyanı Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi yerinə yetirir.

5. Müəllif qonorarının ödəyiciləri istifadə olunan əsərlərin dəqiq uçotunu aparmalı və müəllif qonorarı ilə bağlı bütün sənədləri yoxlamaq üçün Müəllif Hüquqları Agentliyinin nümayəndəsinə təqdim etməlidir.

6. Əsər müəllifinin, qiymətli metallar və qiymətli daşlar istisna olmaqla, tiraj nüsxələrindən bir ədədini maya dəyərini ödəməklə almaq ixtiyarı vardır.xii[12]

Əgər məlumat nümunələri metrlə ölçülən materialdandırsa (parça, klyonka və s.) müəllifin sərgidə nümayiş etdirmək üçün onun şərtlərinə uyğun olan ölçüdə mal almaq (dəyərini ödəməklə) hüququ vardır.

---

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1997-ci il 2 may tarixli 38 nömrəli qərarına
9 nömrəli əlavə

**Televiziya və radio verilişlərinin, televiziya filmlərinin və digər televiziya və radio əsərlərinin yaradıcılarına ödənilən müəllif qonorarlarının və sair ödənilən haqların miqdarı və verilməsi Qaydaları**

**1. Bədii televiziya filmlərinin və pyeslərin ədəbi ssenarilərinə görə müəllif qonorarı**

Qonorarın miqdarı hər bir konkret halda əsərin bədii-ideya səviyyəsindən, mövzunun aktuallığından, yaradıcılıq işinin orijinallığından və mürəkkəbliyindən, materialların axtarışı və öyrənilməsi çətinliyindən, müəllifin peşəkarlıq səviyyəsindən və filmin həcmindən asılı olaraq müəyyənləşdirilir. Bu halda çəkilişə hazırlanan filmin həcmi sifariş edilən və ya əldə olunan hazır ssenari əsasında müəyyən edilir.

**1.1. Tammetrajlı bədii filmlərin və pyeslərin sifariş edilən ədəbi ssenariləri üçün müəllif qonorarının minimum miqdarı**

Tammetrajlı bədii filmlərin və bədii pyeslərin sifariş edilən ədəbi ssenariləri üçün müəllif qonorarı aşağıdakı məbləğlərdə müəyyənləşdirilir:

*(min manatla)*

| | **Orijinal ssenarilər** | **Dərc olunmuş əsərlərin motivləri əsasında yazılan ssenarilər** |
|---|---|---|
| Bədii filmin ssenarisi təsdiq edildikdə | 560.0 | 400.0 |
| Bədii film istehsala buraxıldıqda | 400.0 | 280.0 |
| Hazır bədii film qəbul edildikdə: | | |
| Yüksək ödəmə qrupu üzrə | 880.0 | 720.0 |
| Birinci ödəmə qrupu üzrə | 600.0 | 400.0 |
| Bədii pyesin orijinal ssenarisi təsdiq edildikdə | 320.0 | - |

| | | |
|---|---|---|
| Bədii pyesin orijinal ssenarisi istehsala buraxıldıqda | 240.0 | - |

**1.2. Qısametrajlı bədii (multiplikasiya) filmlərin orijinal ssenarilərinə görə müəllif qonorarının minimum miqdarı**

Qısametrajlı bədii (multiplikasiya) filmlərin orijinal ssenarilərinə görə müəllif qonorarı aşağıdakı məbləğlərdə müəyyənləşdirilir:

*(min manatla)*

| | 1—2 hissəli filmlər | 3—4 hissəli filmlər | 5 və daha çox hissəli filmlər |
|---|---|---|---|
| Ssenari təsdiq edildikdə | 120.0 | 240.0 | 360.0 |
| Film istehsala buraxıldıqda | 60.0 | 160.0 | 240.0 |
| Film birinci ödəmə qrupu üzrə qəbul edildikdə | 120.0 | 240.0 | 360.0 |

**1.3. Dərc olunmuş əsərlərin motivləri üzrə qısametrajlı bədii (miltiplikasiya) filmlərinin ssenarilərinə görə müəllif qonorarının minimum miqdarı**

Dərc olunmuş əsərlərin motivləri üzrə qısametrajlı bədii (multiplikasiya) filmlərinin ssenarilərinə görə müəllif qonorarı aşağıdakı məbləğdə müəyyənləşdirilir:

*(min manatla)*

| | 1—2 hissəli filmlər | 3—4 hissəli filmlər | 5 və daha çox hissəli filmlər |
|---|---|---|---|
| Ssenari təsdiq edildikdə | 90.0 | 130.0 | 180.0 |
| Film istehsala buraxıldıqda | 45.0 | 72.0 | 90.0 |
| Film birinci ödəmə qrupu üzrə qəbul edildikdə | 90.0 | 130.0 | 180.0 |

**1.4. Mikrometrajlı filmlər, verilişlər və videokliplər üçün sifariş edilən ssenarilərə görə müəllif qonorarının minimum miqdarı**

Mikrometrajlı filmlər, verilişlər və videokliplər üçün sifariş edilən ssenarilərə görə müəllif qonorarı aşağıdakı məbləğlərdə müəyyənləşdirilir:

*(min manatla)*

| | 5 dəqiqəyə qədər | 10 dəqiqəyə |
|---|---|---|

| | | qədər |
|---|---|---|
| Ssenari təsdiq edildikdə | 40.0 | 80.0 |
| Sifarişçi tərəfindən film qəbul edildikdə | 72.0 | 140.0 |

**1.5. Tammetrajlı sənədli filmlər üçün sifariş edilən ssenarilərə görə müəllif qonorarının minimum miqdarı**

Tammetrajlı sənədli filmlər üçün sifariş edilən ssenarilərə görə müəllif qonorarı aşağıdakı məbləğlərdə müəyyənləşdirilir:

*(min manatla)*

| | |
|---|---|
| Ssenari təsdiq edildikdə | 240.0 |
| Film istehsala buraxıldıqda | 160.0 |
| Hazır film qəbul edildikdə: | |
| yüksək ödəmə qrupu üzrə | 240.0 |
| birinci ödəmə qrupu üzrə | 160.0 |

**1.6. Qısametrajlı filmlər üçün sifariş edilən ssenari-montaj planlarına görə müəllif qonorarının minimum miqdarı**

Qısametrajlı filmlər üçün sifariş edilən ssenari-montaj planlarına görə müəllif qonorarı aşağıdakı məbləğlərdə müəyyənləşdirilir:

*(min manatla)*

| | |
|---|---|
| 1 hissəli filmlər üçün | 40.0 |
| 2 hissəli filmlər üçün | 60.0 |
| 3 hissəli filmlər üçün | 80.0 |
| 4 hissəli filmlər üçün | 100.0 |

**1.7. Tammetrajlı filmlər üçün sifariş edilən ssenari-montaj planlarına görə müəllif qonorarının minimum miqdarı**

Tammetrajlı filmlər üçün sifariş edilən ssenari-montaj planlarına görə müəllif qonorarı aşağıdakı məbləğlərdə müəyyənləşdirilir:

*(min manatla)*

| | |
|---|---|
| 5 və daha çox hissəli film üçün, cəmi | 320.0 |

| | |
|---|---|
| o cümlədən: | |
| ssenari-montaj planı təsdiq edildikdə | 60% |
| film istehsala buraxılıqda | 40% |

**1.8. Bədii film istisna olmaqla digər filmlərin (xronikal-sənədli, elmi-populyar, tədris və s.) orijinal ssenarilərinə görə müəllif qonorarının minimum miqdarı**

Bədii film istisna olmaqla digər filmlərin (xronikal-sənədli, elmi-populyar, tədris və s.) orijinal ssenarilərinə görə müəllif qonorarı aşağıdakı məbləğlərdə müəyyənləşdirilir:

*(min manatla)*

| | |
|---|---|
| 1 hissəli filmlər üçün | 80.0 |
| 2 hissəli filmlər üçün | 160.0 |
| 3 hissəli filmlər üçün | 240.0 |
| 4 hissəli filmlər üçün | 280.0 |
| 5 və daha çox hissəli | 360.0 |

**1.9. Bədii televiziya filmlərinin və pyeslərin ədəbi ssenarilərinə görə müəllif qonorarlarının müəyyənləşdirilməsi və ödənilməsi ilə bağlı digər şərtlər**

1.9.1. Məzmunu çəkilmiş (və ya çəkilən) hadisənin materialı əsasında müəyyənləşdirilən filmlərin ssenarisi üçün müəllif qonorarı orijinal ssenarinin 5-% miqdarında müəyyən edilir.

1.9.2. Ssenari tərcümə edilərkən hər hissə üçün müəllif qonorarı aşağıdakı məbləğdə müəyyənləşdirilir:

| | |
|---|---|
| a) bədii mətnlər üçün | 80.0 min manat |
| b) digər mətnlər üçün | 35.0 min manat |

1.9.3. 15 dəqiqə həcmində ssenari üçün müəllif qonorarı 1—2 hissəlik müvafiq növdən olan film üçün nəzərdə tutulmuş həddə ödənilir.

1.9.4. Diktor mətni müəllif tərəfindən hazırlanır.

1.9.5. Ssenari müəllifinə yaradıcılıq ezamiyyəti lazım olarsa, bu ezamiyyət ssenari yazılması üçün onunla müəllif müqaviləsi bağlandıqdan sonra verilir. Ezamiyyə xərcləri müəllif qonorarına daxil edilmir və müəlliflə razılaşdırılaraq müqavilədə müəyyənləşdirilir.

1.9.6. Müəllif müqaviləsi əsasında filmi istehsal edən təşkilat tərəfindən müəllifə qonorarın 35 faizi həcmində avans ödənilir.

Müəllif müqaviləsinin şərtlərinin düzgün müəyyənləşdirilməsinə görə filmin direktoru məsuliyyət daşıyır.

1.9.7. İstehsal prosesində filmin həcmi dəyişdirilərsə, müəllif qonorarının məbləği müəllif müqaviləsində olduğu kimi saxlanılır və müqavilədə göstərilmiş həcmdə ödənilir.

1.9.8. Müəllif qonorarı filmi istehsal edən təşkilatla bağlanmış müqavilə əsasında film bir plyonkada təhvil verildikdən sonra efirə buraxılmazdan əvvəl də alına bilər.

1.9.9. Ssenari qəbul edildikdən sonra hər hansı bir səbəbdən film istehsala buraxılmazsa, dəymiş maddi ziyana görə ssenari qəbul etmiş və müəlliflə müqavilə bağlamış şəxslər qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Qeyd.** Dövlət müəssisələrində müəllif qonorarlarının ödənilməsinə minimum miqdarın 5 (beş) dəfəyə qədər dövlət büdcəsindən ayrılmış vəsait dairəsində artırılmasına icazə verilir.

---

## 2. Televiziya filmlərinin və digər televiziya əsərlərinin musiqisinə görə müəllif qonorarının minimum miqdarı

2.1. Televiziya filmlərinə və digər televiziya əsərlərinə musiqi yazan bəstəkara orijinal musiqi üçün müəllif qonorarı aşağıdakı məbləğlərdə müəyyənləşdirilir:

*(min manatla)*

| | |
|---|---|
| bədii (multiplikasiya) film (səslənmə müddətinin hər dəqiqəsi üçün) | 10.0 |
| musiqili bədii film (səslənmə müddətinin hər dəqiqəsi üçün) | 8.0 |
| digər filmlər (səslənmə müddətinin hər dəqiqəsi üçün) | 7.0 |
| Başqa bəstəkarların əsərlərindən istifadə etdikdə (musiqi tərtibatının hər dəqiqəsi üçün) | 4.0. |

2.2. Bəstəkarla musiqinin yazılması üçün müəllif müqaviləsi filmin direktoru tərəfindən quruluşçu rejissorun razılığı ilə sifariş təqdim edildikdən sonra bağlanılır.

2.3. Çoxseriyalı film boyu seriyalarda eyni musiqi kompozisiyası səsləndirilirsə, müəllif müqaviləsi əsasında bəstəkara ancaq bir seriya üçün müəllif qonorarı ödənilir.

Çoxseriyalı filmin seriyalarına yeni orijinal musiqi tərtibatı verilirsə, müəllif müqaviləsi əsasında bəstəkara hər seriyada səsləndirilən musiqinin hər dəqiqəsi üçün ayrıca qonorar ödənilir.

2.4. Bəstəkarla bağlanmış müəllif müqaviləsinin şərtlərinin düzgün tərtib olunmasına görə filmin direktoru məsuliyyət daşıyır.

2.5. Bəstəkarın yaratdığı musiqi əsəri filmin rejissor həllinə uyğun gəlmədikdə və rejissor başqa bir bəstəkara musiqi sifariş verməli olduqda, musiqi əsərini hazırlamış bəstəkara ümumi məbləğin 50 faizinə qədər qonorar ödənilə bilər.

**Qeyd.** Dövlət müəssisələrində müəllif qonorarlarının ödənilməsində minimum miqdarın 5 (beş) dəfəyə qədər dövlət büdcəsindən ayrılmış vəsait dairəsində artırılmasına icazə verilir.

---

## 3. Televiziya filmlərinin və digər televiziya əsərlərinin istehsalına məsləhətçilərin cəlb edilməsi və onlara ödənilən haqq

3.1. Televiziya filmlərinin və digər televiziya əsərlərinin istehsalına məsləhətçilər hər bir sahə üzrə mütəxəssis məsləhətinə ehtiyac olduqda filmi istehsal edən təşkilat tərəfindən dəvət edilirlər.

3.2. Məsləhətçi ilə filmi istehsal edən təşkilatın rəhbəri arasında göstərilən xidmət barədə mülki-hüquqi müqavilə bağlanılır.

3.3. Məsləhət üçün ödənilən haqqın miqdarı məsləhətin mürəkkəbliyindən və mütəxəssisin ixtisas dərəcəsindən asılı olaraq aşağıdakı məbləğlərə qədər müəyyənləşdirilərək ödənilir:

*(min manatla)*

a) ssenarinin yazılışı prosesində:

| **Bədii filmlər** | | **Digər filmlər** | |
|---|---|---|---|
| 1—3 hissəli filmlər | 400.0 | 1—3 hissəli filmlər | 300.0 |
| 4 və daha çox hissəli filmlər | 600.0 | 4 və daha çox hissəli filmlər | 400.0 |

b) rejissor ssenarisinin yazılışı və filmin qoyuluşu prosesində:

| **Bədii filmlər** | | **Digər filmlər** | |
|---|---|---|---|
| 1—3 hissəli filmlər | 600.0 | 1—3 hissəli filmlər | 400.0 |
| 4 və daha çox hissəli filmlər | 1000.0 | 4 və daha çox hissəli filmlər | 700.0 |

c) filmin istehsalı vaxtı birdəfəlik məsləhətlər üçün 200.0 min manata qədər haqq ödənilir.

**4. Televiziya filmlərinin və digər televiziya və radio əsərlərinin quruluş haqqı**

Quruluş haqqı televiziya filmlərinin və digər televiziya və radio əsərlərinin quruluşuna görə yaradıcı heyətə vəzifə maaşından əlavə ödənilən müəllif qonorarıdır. Quruluş haqqı yaradılan əsərin (verilişin) quruluşunda iştirak edən yaradıcı heyətə istehsalçı təşkilat tərəfindən müəllif müqaviləsi əsasında müəyyən edilmiş əmək funksiyalarının və iş həcmi normasının yerinə yetirildiyi halda ödənilir.

**4.1. Tammetrajlı bədii fimlərin quruluş haqqı**

4.1.1. Tammetrajlı bədii filmlər üçün quruluş haqqı təsdiq edilmiş ödəniş qrupları üzrə aşağıdakı məbləğlərə qədər müəyyənləşdirilərək ödənilir:

*(min manatla)*

| Quruluşçu heyət | Ali qrup | I qrup | II qrup | III qrup |
|---|---|---|---|---|
| Quruluşçu rejissor | 3500.0 | 2840.0 | 2100.0 | 900.0 |
| Kinorejissor | 1540.0 | 1420.0 | 1060.0 | 460.0 |
| Baş quruluşçu kinooperator | 2500.0 | 2100.0 | 1420.0 | 1060.0 |
| Kinooperator | 1420.0 | 1060.0 | 700.0 | 460.0 |
| Quraşdırılmış çəkilişlər üzrə kinooperator | 900.0 | 700.0 | 460.0 | 320.0 |
| Quraşdırılmış çəkilişlər rəssamı | 560.0 | 360.0 | 300.0 | 200.0 |
| Dekorlar üzrə quruluşçu rəssam | 960.0 | 900.0 | 700.0 | 320.0 |
| Geyim üzrə quruluşçu rəssam | 460.0 | 360.0 | 300.0 | 300.0 |
| Səs operatoru | 460.0 | 440.0 | 320.0 | 260.0 |
| Redaktor | 460.0 | 460.0 | — | — |
| Direktor | 860.0 | 520.0 | 320.0 | 320.0 |

4.1.2. Əsas yaradıcı-istehsalat heyətinin quruluş haqlarının azaldılması hesabına filmin istehsalında iştirak edən digər şəxslərə haqq ödənilməsinə icazə verilir.

4.1.3. Qısametrajlı filmlərin quruluş haqqı tammetrajlı film üçün müəyyən edilmiş quruluş haqqının səkkizə bölünməsi və nəticənin qısametrajlı filmdəki hissələrin sayına vurulması yolu ilə müəyyən edilir.

**4.2. Mikrometrajlı bədii reklam filmlərinin, verilişlərin və videokliplərin quruluş haqqı**

Mikrometrajlı bədii reklam filmlərinin, verilişlərin və videokliplərin quruluş haqqı aşağıdakı məbləğlərə qədər müəyyənləşdirilərək ödənilir:

*(min manatla)*

| **Quruluşçu heyət** | **5 dəqiqəlik** | **10 dəqiqəlik** |
|---|---|---|
| Quruluşçu rejissor | 170.0 | 280.0 |
| Kinooperator | 100.0 | 170.0 |
| Rəssam | 70.0 | 150.0 |
| Səs operatoru | 40.0 | 100.0 |
| İnzibatçı | 40.0 | 100.0 |

**4.3. Tammetrajlı televiziya film-konsertlərinin quruluş haqqı**

Tammetrajlı televiziya film-konsertlərinin quruluş haqqı aşağıdakı məbləğlərə qədər müəyyənləşdirilərək ödənilir:

*(min manatla)*

| **Quruluşçu heyət** | **I qrup** | **II qrup** | **III qrup** |
|---|---|---|---|
| Quruluşçu rejissor | 720.0 | 520.0 | 350.0 |
| Kinooperator | 500.0 | 300.0 | 240.0 |
| Rəssam | 280.0 | 240.0 | 170.0 |
| Səs operatoru | 300.0 | 280.0 | 200.0 |
| Direktor | 200.0 | 170.0 | 130.0 |

**4.4. Bədii multiplikasiya filmlərinin quruluş haqqı**

4.4.1. Bədii multiplikasiya filmlərinin quruluş haqqı aşağıdakı məbləğlərə qədər müəyyənləşdirilərək ödənilir:

a) rəsmi multiplikasiya filmi

*(min manatla)*

| **Quruluşçu heyət** | **Filmin həcmi, hissə** | **I qrup** | **II qrup** | **III qrup** |
|---|---|---|---|---|

| | **ilə** | | | |
|---|---|---|---|---|
| Kinorejissor | 1 | 460,0 | 440,0 | 400,0 |
| Quruluşçu rejissor | 2 | 500,0 | 400,0 | 340,0 |
| | 3 | 600,0 | 460,0 | 320,0 |
| | 4 | 780,0 | 650,0 | 350,0 |
| | 5 və yuxarı | 960,0 | 720,0 | 400,0 |
| Kinooperator | 1 | 330,0 | 300,0 | 260,0 |
| Quruluşçu kinooperator | 2 | 360,0 | 340,0 | 300,0 |
| | 3 | 400,0 | 360,0 | 330,0 |
| | 4 | 440,0 | 400,0 | 360,0 |
| | 5 və yuxarı | 460,0 | 440,0 | 400,0 |
| Rəssam | 1 | 240,0 | 200,0 | 160,0 |
| | 2 | 340,0 | 300,0 | 260,0 |
| | 3 | 400,0 | 360,0 | 330,0 |
| | 4 | 440,0 | 400,0 | 360,0 |
| | 5 və yuxarı | 600,0 | 560,0 | 520,0 |
| Səs operatoru | 1 | 180,0 | 100,0 | 80,0 |
| | 2 | 200,0 | 160,0 | 140,0 |
| | 3 | 240,0 | 200,0 | 160,0 |
| | 4 | 260,0 | 240,0 | 200,0 |
| | 5 və yuxarı | 300,0 | 260,0 | 240,0 |
| Direktor | 1 | 180,0 | 140,0 | 100,0 |
| | 2 | 200,0 | 180,0 | 140,0 |
| | 3 | 240,0 | 200,0 | 180,0 |
| | 4 | 260,0 | 240,0 | 200,0 |
| | 5 və yuxarı | 300,0 | 260,0 | 240,0 |

b) kukla multiplikasiya filmi

*(min manatla)*

| | **Hissə üzrə cəmi** | **I qrup** | **II qrup** | **III qrup** |
|---|---|---|---|---|
| Quruluşçu rejissor | 1 | 440,0 | 400,0 | 360,0 |
| | 2 | 460,0 | 440,0 | 400,0 |
| | 3 | 500,0 | 460,0 | 440,0 |
| | 4 | 520,0 | 500,0 | 460,0 |
| | 5 və yuxarı | 860,0 | 660,0 | 360,0 |
| Kinooperator | 1 | 340,0 | 300,0 | 260,0 |
| Quruluşçu kinooperator | 2 | 360,0 | 340,0 | 300,0 |
| | 3 | 400,0 | 360,0 | 340,0 |
| | 4 | 440,0 | 400,0 | 360,0 |
| | 5 və yuxarı | 460,0 | 440,0 | 400,0 |
| Rəssam | 1 | 160,0 | 140,0 | 100,0 |
| | 2 | 200,0 | 180,0 | 140,0 |
| | 3 | 240,0 | 200,0 | 180,0 |
| | 4 | 260,0 | 240,0 | 200,0 |
| | 5 və yuxarı | 300,0 | 260,0 | 240,0 |
| Səs operatoru | 1 | 140,0 | 100,0 | 80,0 |
| | 2 | 160,0 | 140,0 | 100,0 |
| | 3 | 200,0 | 180,0 | 140,0 |
| | 4 | 240,0 | 200,0 | 180,0 |
| | 5 və yuxarı | 260,0 | 240,0 | 200,0 |
| Direktor | 1 | 160,0 | 140,0 | 100,0 |
| | 2 | 200,0 | 180,0 | 140,0 |

| | | | | |
|---|---|---|---|---|
| | 3 | 240,0 | 200,0 | 180,0 |
| | 4 | 260,0 | 240,0 | 200,0 |
| | 5 və yuxarı | 300,0 | 260,0 | 240,0 |

c) mikrometrajlı multiplikasiya filmi

*(min manatla)*

| **Çəkiliş üslubu** | | | | | | |
|---|---|---|---|---|---|---|
| | **Rəsmli** | | | **Kukla ilə** | | |
| | **I qrup** | **II qrup** | **III qrup** | **I qrup** | **II qrup** | **III qrup** |
| Həcmi 50 metrə qədər olan | | | | | | |
| Rejissor | 340,0 | 300,0 | 260,0 | 340,0 | 300,0 | 260,0 |
| Operator | 300,0 | 260,0 | 240,0 | 300,0 | 260,0 | 240,0 |
| Rəssam | 260,0 | 240,0 | 200,0 | 260,0 | 240,0 | 200,0 |
| Səs operatoru | 240,0 | 200,0 | 180,0 | 240,0 | 200,0 | 180,0 |
| Həcmi 100 metrə qədər olan | | | | | | |
| Rejissor | 600,0 | 520,0 | 500,0 | 600,0 | 520,0 | 500,0 |
| Operator | 520,0 | 500,0 | 460,0 | 560,0 | 480,0 | 460,0 |
| Rəssam | 500,0 | 460,0 | 440,0 | 460,0 | 440,0 | 400,0 |
| Səs operatoru | 300,0 | 260,0 | 240,0 | 300,0 | 260,0 | 240,0 |
| Həcmi 150 metrə qədər olan | | | | | | |
| Rejissor | 720,0 | 680,0 | 660,0 | 720,0 | 700,0 | 660,0 |
| Operator | 600,0 | 560,0 | 520,0 | 620,0 | 560,0 | 520,0 |
| Rəssam | 520,0 | 500,0 | 460,0 | 500,0 | 460,0 | 440,0 |
| Səs operatoru | 340,0 | 300,0 | 260,0 | 340,0 | 300,0 | 260,0 |

**4.5. Xronikal-sənədli filmlərin quruluş haqqı**

4.5.1. Tammetrajlı xronikal-sənədli filmlərin quruluş haqqı təsdiq edilmiş ödəniş qrupuna və filmin istehsal prosesinin mürəkkəbliyinə uyğun olaraq aşağıdakı məbləğlərə qədər müəyyənləşdirilərək ödənilir:

*(min manatla)*

| Quruluşçu heyət | Mürəkkəblik dərəcəsi | I qrup | II qrup | III qrup |
|---|---|---|---|---|
| Rejissor | 1 | 1800,0 | 1500,0 | 700,0 |
| | 2 | 1500,0 | 1060,0 | 520,0 |
| Operator | 1 | 1500,0 | 1060,0 | 520,0 |
| | 2 | 1060,0 | 700,0 | 380,0 |
| Səs operatoru | 1 | 860,0 | 460,0 | 300,0 |
| | 2 | 500,0 | 360,0 | 260,0 |
| Mühəndis-texniki personal | 1 | 860,0 | 460,0 | 300,0 |
| Direktor | 1 | 700,0 | 460,0 | 300,0 |
| Mühəndis-texniki personal | 2 | 760,0 | 400,0 | 270,0 |

**4.6. Qısametrajlı filmlərin quruluş haqqı**

4.6.1. Qısametrajlı filmlərin quruluş haqqı aşağıdakı məbləğlərə qədər müəyyənləşdirilərək ödənilir:

*(min manatla)*

| Quruluşçu heyət | 1 hissəli | | | 2 hissəli | | | 3 hissəli | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | I qrup | II qrup | III qrup | I qrup | II qrup | III qrup | I qrup | II qrup | III qrup |
| Rejissor | 900,0 | 700,0 | 360,0 | 1060,0 | 1060,0 | 700,0 | 1420,0 | 1260,0 | 1060,0 |
| Operator | 700,0 | 520,0 | 260,0 | 1060,0 | 900,0 | 520,0 | 1260,0 | 1060,0 | 900,0 |
| Səs operatoru | 300,0 | 200,0 | 120,0 | 460,0 | 380,0 | 260,0 | 900,0 | 700,0 | 460,0 |
| Direktor | 300,0 | 200,0 | 120,0 | 460,0 | 380,0 | 260,0 | 820,0 | 640,0 | 560,0 |

**4.7. Kino-video plyonkasında çəkilmiş telefilmlərin və teletamaşaların quruluş haqqı**

4.7.1. Kino-video plyonkasında çəkilmiş orijinal-mürəkkəb telefilmlərin və teletamaşaların quruluş haqqı onların müddətindən asılı olaraq aşağıdakı məbləğlərə qədər müəyyənləşdirilərək ödənilir:

*(min manatla)*

| **Quruluşçu heyət** | **1 saata qədər** | **2 saata qədər** |
|---|---|---|
| Quruluşçu rejissor | 700,0 | 900,0 |
| Teleoperator | 360,0 | 740,0 |
| Quruluşçu rəssam | 140,0 | 360,0 |
| Səs operatoru (səs rejissoru) | 140,0 | 200,0 |
| Rejissor assistenti | 175,0 | 200,0 |
| Mühəndis-texniki personal | 140,0 | 360,0 |
| İnzibatçı | 80,0 | 200,0 |

4.7.1.1. Orijinal teletamaşa üçün redaktora müəllif qonorarının 20 faizi həcmində haqq verilir.

4.7.2. Televiziya verilişlərinin quruluş haqqı onların müddətindən asılı olaraq aşağıdakı məbləğlərə qədər müəyyənləşdirilərək ödənilir:

*(min manatla)*

| **Quruluşçu heyət** | **Həcmi 45 dəqiqəyədək olan veriliş üçün** | **Həcmi 20 dəqiqəyədək olan veriliş üçün** |
|---|---|---|
| Rejissor | 360,0 | 180,0 |
| Operator | 250,0 | 220,0 |
| Səs rejissoru (səs operatoru) | 140,0 | 110,0 |
| Rejissor assistenti | 110,0 | 90,0 |
| Aparıcı | 240,0 | 120,0 |
| Redaktor | 150,0 | 90,0 |
| Rəssam | 220,0 | 110,0 |
| Mühəndis-texniki personal | 200,0 | 130,0 |
| İnzibatçı | 200,0 | 130,0 |

4.7.2.1. Çoxsaatlı verilişlərin quruluş haqqının müəyyən edilməsi üçün 45 dəqiqəlik verilişlər üçün nəzərdə tutulan quruluş haqlarının bir dəqiqəsi üçün hesablanmış haqqın çoxsaatlı verilişin dəqiqə ilə müəyyən edilmiş həcminə vurulur.

4.7.2.2. Videoyazı aparılmadan və montaj edilmədən (canlı yayımla) efirə çıxan televiziya verilişinin quruluş haqqı müəyyən edilmiş quruluş haqlarından 30 faiz yüksək məbləğdə ödənilir.

4.7.2.3. Verilişin hazırlanması üçün bir gün ərzində efirə gedən proqramların quruluşçu rejissoruna 100 min manat, aparıcı rejissoruna isə 60 min manat quruluş haqqı ödənilir.

4.7.3. Multiplikasiya haşiyələrinin, multiplikasiya başlıqlarının, multiplikasiya sonluqlarının hazırlanması üçün yaradıcı heyətə quruluş haqqı təsviri materialın hər dəqiqəsi üçün müvafiq multiplikasiya filminin quruluş haqqının 15 faizi miqdarında ödənilir.

4.7.4. Musiqi verilişinin hazırlanması üçün quruluş haqqı müvafiq televiziya verilişlərinin quruluş haqqının 15 faizi miqdarında ödənilir.

4.7.5. Musiqili videokliplərin yaradılması üçün quruluş haqqı müvafiq həcmli verilişlər üçün ayrılan məbləğin 100 faizi həcmində ödənilir.

4.7.6. Tammetrajlı tamaşalar və süjetli konsert-telefilmlərin quruluş haqqı aşağıdakı məbləğlərə qədər müəyyənləşdirilərək ödənilir:

*(min manatla)*

| **Quruluşçu heyət** | **I qrup** | **II qrup** | **III qrup** |
|---|---|---|---|
| Quruşluşçu kinorejissor | 1160,0 | 700,0 | 500,0 |
| Quruluşçu operator | 780,0 | 440,0 | 400,0 |
| Quruluşçu rəssam | 400,0 | 300,0 | 220,0 |
| Səs rejissoru | 400,0 | 300,0 | 220,0 |
| Mühəndis-texniki personal | 400,0 | 300,0 | 220,0 |
| Direktor | 240,0 | 220,0 | 200,0 |

4.7.6.1. Mürəkkəb quruluş həlli tələb etməyən və həcmcə böyük olmayan televiziya tamaşalarının və konsertlərinin hazırlanması üçün quruluş haqqı 50% azaldılır.

4.7.7. Telejurnalların quruluş haqqı aşağıdakı məbləğlərə qədər müəyyənləşdirilərək ödənilir:

*(min manatla)*

| **Quruluşçu heyət** | **I qrup** | **II qrup** | **III qrup** |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| Rejissor | 200,0 | 160,0 | 140,0 |
| Səs operatoru | 170,0 | 140,0 | 100,0 |
| Montajçı | 170,0 | 140,0 | 100,0 |

4.7.8. Teleoçerklərin quruluş haqqı aşağıdakı məbləğlərə qədər müəyyənləşdirilərək ödənilir:

*(min manatla)*

| **Quruluşçu heyət** | **I qrup** | **II qrup** | **III qrup** |
|---|---|---|---|
| Rejissor | 200,0 | 140,0 | 140,0 |
| Operator | 170,0 | 100,0 | 80,0 |
| Səs operatoru | 140,0 | 80,0 | 60,0 |
| Montajçı | 140,0 | 80,0 | 60,0 |

4.7.9. Süjetlərin quruluş haqqı aşağıdakı məbləğlərə qədər müəyyənləşdirilərək ödənilir:

*(min manatla)*

| **Quruluşçu heyət** | **I qrup** | **II qrup** | **III qrup** |
|---|---|---|---|
| Operator | 140,0 | 100,0 | 60,0 |
| Səs operatoru | 80,0 | 60,0 | 60,0 |
| Rejissor (informasiya süjetləri üçün) | 140,0 | 80,0 | 60,0 |
| Montajçı | 140,0 | 80,0 | 60,0 |

4.7.9.1. Reklam roliklərinə süjetlər çəkilərkən operatorun quruluş haqqına 1,5 əmsalı tətbiq olunur.

4.7.9.2. Xüsusi əhəmiyyətli süjetlər üçün kinooperatorun quruluş haqqı 200 faizə qədər artırıla bilər.

4.7.9.3. Xüsusi əhəmiyyətli süjetlər lentə çəkildikdə səs operatorunun quruluş haqqı 200 faizə, videolentə çəkildikdə isə 150 faizə qədər artırıla bilər.

4.7.10. Kənar təşkilatın sifarişi ilə yaradılan teletamaşanın (verilişin, videoklipin) çəkilişində iştirak edən yaradıcı heyətin quruluş haqqı 50 faiz artırılır.

**4.8. Ədəbi-dram və musiqili tamaşaların quruluş haqqı**

4.8.1. Ədəbi-dram və musiqili tamaşaların yazılışı üçün rejissorlara quruluş haqqı aşağıdakı məbləğlərə qədər müəyyənləşdirilərək ödənilir:

*faydalı səslənmə müddətinin 1 dəqiqəsi üçün (manatla)*

| | | |
|---|---|---|
| həcmi 30 dəqiqəyə qədər | — | 11550 |
| həcmi 30 dəqiqədən — 90 dəqiqəyə qədər | — | 11800 |
| həcmi 90 dəqiqədən çox | — | 18720 |

**Qeyd.** Rejissor assistenti rejissora çatacaq quruluş haqqının 30 faizi məbləğində haqq alır.

---

4.8.2. Səs rejissorları və musiqi tərtibatçılarına quruluş haqqı aşağıdakı məbləğlərə qədər müəyyənləşdirilərək ödənilir:

*faydalı səslənmə müddətinin 1 dəqiqəsi üçün (manatla)*

| | | |
|---|---|---|
| Səs rejissorları | — | 8400 |
| Musiqi tərtibatçıları qrupunun rəhbəri | — | 7200 |
| Musiqi tərtibatçıları (hər birinə) | — | 6000 |

4.8.3. Xidməti personala-kollektivlərin yazılışı üzrə təşkilatçılara (direktor, inzibatçı, fəhlələr) quruluş haqqı aşağıdakı məbləğlərə qədər müəyyənləşdirilərək ödənilir:

*faydalı səslənmə müddətinin 1 dəqiqəsi üçün (manatla)*

| | | |
|---|---|---|
| Heyəti 45 nəfərədək olan kollektiv üçün | — | 11700 |
| Heyəti 45 nəfərdən artıq olan kollektiv üçün | — | 7020 |
| Kollektivlərin fəhlələri | — | 8160 |

**4.9. Televiziya filmlərinin və digər televiziya əsərlərinin quruluş haqqının ödənişlərinin digər ümumi şərtləri**

4.9.1. Videofilmlərə quruluş haqqı kinoplyonkada yaradılmış müvafiq film üçün nəzərdə tutulan məbləğin 100 faizi miqdarında ödənilir.

4.9.2. Filmin yaradılmasında iştirak edən digər işçilərə əsas yaradıcı istehsal heyəti üçün ayrılan məbləğin azaldılması hesabına haqq verilə bilər.

4.9.3. Sifarişlə hazırlanmış reklam lentinin efirdə göstərilmiş 1 dəqiqəsi üçün quruluş haqqı aşağıdakı məbləğlərə qədər müəyyənləşdirilərək ödənilir:

| | | |
|---|---|---|
| rejissor | — | 180,0 min manat; |
| operator | — | 160,0 min manat; |
| səs operatoru | — | 140,0 min manat; |

4.9.4. Çoxseriyalı bədii filmlər, teletamaşalar və s. yaradılarkən hər sonrakı seriya üçün birinci seriyanın quruluş haqqının 50 faizinədək quruluş haqqı nəzərdə tutulur.

4.9.5. Filmdə 10 faizdən artıq filmoteka materiallarından və kontratiplərdən istifadə olunduqda, quruluş haqqının məbləği 20 faiz azaldılır.

4.9.6. Quruluş haqqı film bir plyonkada təhvil verildikdən və ödəniş qrupu müəyyən edildikdən sonra film efirə buraxılmazdan əvvəl də verilə bilər.

4.9.7. Neqativ və pozitiv plyonkaların, o cümlədən maqnit lentlərinin normadan artıq sərf olunmasına yol verən işçilərə quruluş haqqı onların dəyəri qədər azaldılır.

4.9.8. Filmin yaradılmasında eyni ixtisaslı bir neçə işçi iştirak etdikdə, quruluş haqqının məbləği onların ayrılıqda gördükləri işə görə müvafiq quruluş haqqı çərçivəsində müəyyənləşdirilir.

4.9.9. Redaktora rejissorun quruluş haqqının 80 faizindən çox olmayan məbləğdə quruluş haqqı verilir.

4.9.10. Rejissor assistentinə quruluşçu rejissorun quruluş haqqının 25 faizi, mühəndis-montajçıya isə 40 faizi qədər quruluş haqqı verilir.

4.9.11. Əsas vəzifəsi və əvəz etdiyi vəzifə üzrə quruluş haqqı almaq hüququ olan işçilərə əvəz edilən vəzifənin quruluş haqqı tam məbləğdə ödənilir.

4.9.12. 15 dəqiqə həcmində televiziya filmlərinə quruluş haqqı müvafiq olaraq bir-iki hissəli filmlər üçün nəzərdə tutulmuş həddə ödənilir.

4.9.13. Televiziyada efirə canlı çıxan verilişlərə görə quruluş haqqı 30 faiz yüksək məbləğdə ödənilir.

4.9.14. Televiziya verilişlərinin hazırlanması xüsusiyyətlərindən asılı olaraq müstəsna hallarda ayrılmış büdcə təxsisatları çərçivəsində müəllif müqaviləsində quruluş haqlarının danışıq qiyməti əsasında müəyyənləşdirilməsinə yol verilir.

4.9.15. Film, veriliş və ya videoklip başqa təşkilatın sifarişi ilə istehsala buraxılırsa, quruluş haqqı 3-5 əmsalı tətbiq edilməklə ödənilə bilər.

**4.10. Radio verilişlərinin quruluş haqqı**

4.10.1. Rejissora radio verilişlərinə görə quruluş haqqı aşağıdakı məbləğlərə qədər müəyyənləşdirilərək ödənilir:

*(min manatla)*

4.10.1.1. Radiopyeslər, opera və operettalar:

| | | |
|---|---|---|
| a) həcmi 20 dəqiqədən 45 dəqiqəyədək | — | 280,0 |
| b) həcmi 45 dəqiqəyə yaxın | — | 540,0 |
| c) həcmi 46 dəqiqədən 90 dəqiqəyədək | — | 990,0 |
| ç) həcmi 90 dəqiqədən çox olan quruluşlar üçün | — | 1280,0 |

4.10.1.2. Quruluş xarakterli digər radio verilişləri:

| | | |
|---|---|---|
| a) həcmi 20 dəqiqədən 45 dəqiqəyədək | — | 80,0 |
| b) həcmi 45 dəqiqəyə yaxın | — | 160,0 |
| c) həcmi 46 dəqiqədən 90 dəqiqəyədək | — | 200,0 |
| ç) həcmi 90 dəqiqədən çox olan quruluşlar üçün | — | 240,0 |

4.10.1.3. Xarici dillərdə bədii verilişlərin hazırlanması və yazılışı:

| | | |
|---|---|---|
| a) səhnələşdirilmiş radio verilişləri üçün | — | 178,0 |
| b) bədii radio icmaları, radio-tamaşalar, studiyadan kənar reportajlar üçün | — | 190,0 |

4.10.2. Rejissor assistentlərinə və mühəndis-montajçıya rejissorun quruluş haqqının 40 faizi qədər quruluş haqqı verilir.

## 5. Televiziya və radio ilə verilən materiallar üçün müəllif qonorarının minimum miqdarı

### 5.1. Televiziya ilə verilən materiallar üçün müəllif qonorarının minimum miqdarı

*(manatla)*

| | | |
|---|---|---|
| 1. Qısa informasiya məlumatı | — | 1520 |
| 2. Geniş informasiya məlumatı | — | 3200 |
| 3. Şərhli informasiyaların, mühüm hadisələrin, çıxışların, sənədlərin qısa operativ şərhi | — | 4000 |

| | | |
|---|---|---|
| 4. Dövlət rəhbərliyinin çıxışlarının, dövlət sənədlərinin, dövlət əhəmiyyətli tədbirlərin qısa operativ şərhi | — | 6400 |
| 5. Reportaj | | |
| Həcmi 5 dəqiqədən — 10 dəqiqəyə qədər | — | 21600 |
| Həcmi 10 dəqiqədən — 20 dəqiqəyə qədər | — | 41200 |
| Həcmi 20 dəqiqədən çox | — | 54000 |
| 6. Şərh, dövlət xadimləri ilə başqa ölkə və şəhərlərə ezamiyyə edilən zaman xüsusi verilişlər | | |
| Həcmi 5 dəqiqədən — 10 dəqiqəyə qədər | — | 26800 |
| Həcmi 10 dəqiqədən — 20 dəqiqəyə qədər | — | 54000 |
| Həcmi 20 dəqiqədən çox | — | 62800 |
| 7. Söhbət, müzakirə və başqa mətnli materiallar, mətn və təsviri material | | |
| Həcmi 5 dəqiqədən — 30 dəqiqəyə qədər | — | 57600 |
| Həcmi 30 dəqiqədən — 45 dəqiqəyə qədər | — | 90000 |
| Həcmi 45 dəqiqədən çox | — | 116800 |
| 8. Felyeton, parodiya, satirik səhifə (hər biri üçün) | — | 16000 |
| 9. Çıxış | — | 18800 |
| 10. Müsahibə | | |
| a) müsahibə aparan | — | 13200 |
| b) müsahibə verən | — | 18800 |

**Qeyd.** Mühüm translyasiyalar vaxtı birbaşa efirə verilən müsahibə üçün aparacının haqqı 240000 manat müəyyənləşdirilir.

| | | |
|---|---|---|
| 11. Mühüm əhəmiyyətli hadisə yerindən birbaşa reportajlar | — | 18800 |

**Qeyd.** Mühüm əhəmiyyətli reportajların ssenarisi və ssenari planları üçün müəllif qonorarı müvafiq ssenariyə uyğun olan müəllif qonorarı həcmində ödənilir.

| | | |
|---|---|---|
| 12. Gənclər və uşaqlar üçün verilişlər və reportajlar:<br>Hərbi verilişlər və reportajlar (həmçinin uzunmüddətli idman yarışlarından ilkin videoyazı əsasında hazırlanmış və sonradan montaj olunub səsləndirilən idman reportajları) | | |
| Həcmi 15 dəqiqədən — 30 dəqiqəyə qədər | — | 48000 |
| Həcmi 30 dəqiqədən — 1 saata qədər | — | 92400 |
| 1 saatdan çox | — | 120000 |

**Qeyd.** Ayrı-ayrı hallarda birbaşa aparılan reportajlarda əlavə verilmiş ssenari planı üçün müəllif qonorarı müvafiq ssenariyə uyğun olan müəllif qonorarı həcmində ödənilə bilər.

| | | |
|---|---|---|
| 13. İdman reportajı | | |
| icmal-həcmi 10 dəqiqəyə qədər | — | 10800 |
| icmal-həcmi 20 dəqiqəyə qədər | — | 21600 |
| icmal-həcmi 30 dəqiqəyə qədər | — | 32400 |
| həcmi 30 dəqiqədən yuxarı | — | 70000 |
| 14. İclas, mitinq, müşavirə və s. haqqında hesabatlar | — | 5600 |
| 15. Fotoreportaj, fotosüjet, fotooçerk və s. | — | 6800 |
| 16. Diktor mətni daxil olmaqla kinohəvəskarlardan əldə edilən reportajlar, süjetlər, oçerklər və başqa materiallar | | |
| a) 10 dəqiqə həcmində | — | 10400 |
| b) 10 dəqiqədən artıq | — | 18800 |
| a) 20 dəqiqədən artıq həcmində materialların hər sonrakı dəqiqəsi üçün | — | 1200 |

**Qeyd.**

Kinohəvəskara kinoplyonkanın dəyəri müəllif müqaviləsində nəzərdə tutulmaqla ödənilir.

Kinohəvəskarların materialı efirdə göstərildikdən sonra özünə qaytarıldıqda, müəllif qonorarı müəyyənləşdirilmiş haqqın 10 faizi həcmində ödənilir.

17. Kinohəvəskarlardan alınan cizgi filmlərinin və yeni əlavələrin müəllif qonorarı efirdə göstərilmə müddətinin hər dəqiqəsi üçün müəllif müqaviləsində müəyyənləşdirilmiş danışıq qiyməti üzrə ödənilir.

18. Aparıcılar üçün:

a) informasiya proqramlarının, icmallarının, səsləndirmələrin və improvizə elementli verilişlərin aparılması

| | | |
|---|---|---|
| Həcmi 30 dəqiqəyə qədər | — | 7200 |
| Həcmi 1 saatadək | — | 14400 |
| 1 saatdan artıq | — | 25200 |

b) mürəkkəb quruluşlu televiziya verilişlərinin və böyük siyasi-ictimai, bədii əhəmiyyəti olan verilişlərin aparılması

| | | |
|---|---|---|
| Həcmi 30 dəqiqəyə qədər | — | 13200 |
| Həcmi 1 saatadək | — | 24000 |
| 1 saatdan artıq | — | 34800 |

**Qeyd.** Ssenarinin (ssenari planının) verilişə daxil edilmiş hissəsinin müəllif qonorarı müvafiq ssenari üçün nəzərdə tutulmuş müəllif qonorarı üzrə ödənilir. Müəllif proqramı öz materialları əsasında hazırladıqda, onun müəllif qonorarı 30 faiz artırılır.

| | | |
|---|---|---|
| 19. İnformasiya agentliklərinin və qəzet materiallarının icmalı, kino və ya videotəsviri, icmallar, dövri mətbuatın, həftəliklərin, kitabların şərhli icmalı, həmçinin verilişdə istifadə olunan məktubların icmalı | — | 2000 |
| 20. Xarici agentliklərin və qəzet məlumatlarının icmalı, verilişlərin, filmlərin və s. anonsu | — | 2000 |
| 21. Verilişlərin, filmlərin qısa izahlı şərhinin hər səhifəsi üçün | — | 1200 |
| 22. Məktubların işlənməsi, müsabiqə, viktorina, olimpiada və s. iştirakçılarına cavabların hazırlanması, həmçinin idarə və təşkilatlardan gələn tamaşaçı məktublarına cavabların hazırlanması və tərcüməsi, məktublara xülasələr yazılması — bir məktub üçün | — | 600 |

| | | |
|---|---|---|
| 23. Məktubların araşdırılması və göndərilməsi — bir məktub üçün | — | 480 |
| 24. Mütəxəssislərin tamaşaçı məktublarına cavabı — bir məktub üçün | — | 800 |
| 25. Musiqi və bədii əsərlərin montajı — bir veriliş üçün | — | 4800 |
| 26. Viktorinaların, müsabiqələrin, tapmaca-konsertlərin tərtibi, o cümlədən epiqramlar üçün | — | 3600 |
| 27. Verilişə xüsusi dəvət olunmuş iştirakçılar üçün | — | 2000 |
| 28. Ştatda olmayan işçilərin illüstrasiyalı materiallar- toplaması üçün | — | 2000 |

**Qeyd.** Nadir materialların toplanması üçün müəllif haqqının məbləği 50 faiz artırıla bilər.

| | | |
|---|---|---|
| 29. Musiqi çələnglərinin aranjeman edilməsi və tərtibi (o cümlədən materialların seçilməsi) — hər musiqi kompozisiyası üçün | — | 3600 |
| 30. Resenziya yazma: | | |
| a) verilişlərə, proqramlara və ayrı-ayrı materiallara | — | 3200 |
| b) telefilmlərə (hər seriyası üçün) | — | 6000 |
| 31. Televiziya materiallarına resenziya yazma: | | |
| a) 3 çap vərəqi həcmində | — | 4800 |
| b) həcmi 3 çap vərəqindən artıq olan materialların hər çap vərəqi üçün | — | 1200 |
| 32. Elm, texnika, incəsənət və s. sahələrin müxtəlif məsələləri üzrə məsləhətlər | | |
| a) birdəfəlik | — | 4800 |
| b) siyasi-ictimai, elmi, bədii əhəmiyyəti olan proqramlar üçün | — | 16800 |
| 33. Müsabiqə, olimpiada, viktorina və başqa televiziya verilişlərinin münsiflər heyətində, müsabiqə proqramlarının baxışında iştirak edənlər üçün (hər dəvət üçün) | — | 4800 |
| 34. Verilişlər üçün tərcümə olunan materialların hər çap vərəqinə | | |
| a) qərb dillərinə | — | 6000 |
| b) şərq dilində | — | 7200 |

| | | |
|---|---|---|
| s) xarici dillərdən rus dilinə, rus dilindən Azərbaycan dilinə | — | 4000 |
| 35. Verilişlərin, oçerklərin, süjetlərin və s. mətnlərin tərcüməsi — hər 10 dəqiqəsi üçün | — | 4400 |
| 36. Filmlərin, verilişlərin və s. mətnlərinin şifahi sinxron tərcüməsi — hər hissə və ya 10 dəqiqə üçün | — | 8400 |
| 37. Baxış zalında verilişin, filmin və s. mətlərin şifahi sinxron tərcüməsi üçün | — | 10000 |
| 38. Yumoristik əsərlərin tərcüməsi (2,5 səhifə həcmində) — hər səhifə üçün | — | 2000 |
| 39. Qısa reprizlərin tərcüməsi — hər biri üçün | — | 1200 |
| 40. Mahnının məzmunun qısa izahı üçün | — | 1200 |
| 41. Süjet, illüstrasiyalı rəsm, bəzək, titr üçün | — | 3200 |
| 42. Xromokey üçün rəsmlər | — | 16800 |
| 43. Multiplikasiya başlıqları, həmçinin elektron qrafikası üsulu ilə hazırlanan bəzəklər və titrlər: | | |
| a) birdəfəlik | — | 16800 |
| b) sifarişlə proqramlar üçün | — | 82000 |
| 44. Titrlər | | 2000 |
| 45. Karikatura, şarj, yumoristik rəsmlər | — | 12000 |
| 46. Verilən mövzuya əsasən kadrda rəsmlərin çəkilişi — hər rəsm üçün | — | 6400 |
10.2. Xronikal-sənədli və digər televiziya filmlərinin dublyajı üçün müəllif haqqı tammetrajlı bədii televiziya filmlərinin və teletamaşaların müvafiq qrupu üçün nəzərdə tutulan müəllif haqqının 70 faizə qədər məbləğində ödənilir. Konkret ödənilmə faizi təşkilatın filmlərin ödəniş qrupunu təyin edən komissiyası tərəfindən müəyyən edilir.

10.3. Dublyaj edilən filmlərin səsləndirilməsinə 14 yaşına çatmamış uşaqlar dəvət edildikdə, onlara verilən haqq müvafiq müəllif haqqından 70 faiz aşağı məbləğdə ödənilir.

## 11. Radio və televiziya üçün, telefilmlərin səsləndirilməsi və orijinal televiziya tamaşaları üçün yazılan musiqi və ədəbi dram əsərlərinin ifasına görə ödənilən haqq

*faydalı səslənmə müddətinin 1 dəqiqəsi üçün, aşağıdakı məbləğlərə qədər (manatla)*

### 11.1. Opera və kamera musiqisi ifaçıları

| | | |
|---|---|---|
| ali dərəcə | — | 3860 |
| birinci dərəcə | — | 2900 |

| | | |
|---|---|---|
| ikinci dərəcə | — | 2300 |
| üçüncü dərəcə | — | 1720 |

**11.2. Operetta və estrada artistləri**

| | | |
|---|---|---|
| ali dərəcə | — | 2500 |
| birinci dərəcə | — | 2300 |
| ikinci dərəcə | — | 1720 |
| üçüncü dərəcə | — | 1540 |

**11.3. İnstrumental musiqi ifaçıları**

| | | |
|---|---|---|
| ali dərəcə | — | 3480 |
| birinci dərəcə | — | 2300 |
| ikinci dərəcə | — | 1720 |
| üçüncü dərəcə | — | 1540 |

**11.4. Akkompaniator-konsertmeysterlər**

| | | |
|---|---|---|
| ali dərəcə | — | 1540 |
| birinci dərəcə | — | 1000 |
| ikinci dərəcə | — | 860 |
| üçüncü dərəcə | — | 540 |

**11.5. Orkestr dirijorları**

| | | |
|---|---|---|
| ali dərəcə | — | 2920 |
| birinci dərəcə | — | 2300 |
| ikinci dərəcə | — | 1920 |
| üçüncü dərəcə | — | 1720 |

**11.6. Simfonik orkestrlərin artistləri**

| | | |
|---|---|---|
| 11.6.1. Birinci skripkaların konsertmeysterləri və violonçel çalanların konsertmeysterləri | — | 8200 |
| 11.6.2. Birinci skripkaların və violonçel çalanların konsertmeysterlərinin müavinləri, ikinci skripkaların, alt, kontrabas, birinci arfa, bas-trombon, | — | 700 |

| | | |
|---|---|---|
| litavra, kornet-a piston, nəfəs alətlərində birinci səs ifaçılarının konsertmeysterləri | | |
| 11.6.3. Birinci skripkaların və violonçellərin ikinci və üçüncü pultları, konsertmeysterlərin müavinləri və ikinci skripkaların, alt və kontrabasların ikinci pultu, ikinci və üçüncü arfalar, pikkolo, ingilis sümsü, royal, nəfəs alətlərinin üçüncü səsləri, kontrafaqot və tuba | — | 640 |
| 11.6.4. Digər birinci skripkalar və violonçellər, ikinci skripkalar, alt, kontrabas, çelestin üçüncü və dördüncü pultları, nəfəs alətlərinin ikinci və dördüncü səsləri | — | 580 |
| 11.6.5. Orkestrin digər artistləri | — | 500 |

**11.7. Kamera-vokal və kamera-instrumental ansamblların (duetlər, triolar, kvartetlər, kvintetlər və s.) artistləri**

| | | |
|---|---|---|
| ali dərəcə | — | 1760 |
| birinci dərəcə | — | 1460 |
| ikinci dərəcə | — | 1180 |
| üçüncü dərəcə | — | 720 |

**11.8. Dirijorlar və akkompaniatorlar, xor və mahnı ansamblarının konsertmeysterləri**

| | | |
|---|---|---|
| birinci dərəcəli dirijorlar | — | 2640 |
| ikinci dərəcəli dirijorlar | — | 2040 |
| üçüncü dərəcəli dirijorlar | — | 1760 |
| akkompaniatorlar-konsertmeysterlər (pianoçalanlar, akkordionçalanlar və s.) | — | 1180 |

**11.9. Xor və mahnı ansamblarının artistləri**

| | | |
|---|---|---|
| xor solistləri | — | 1460 |
| birinci dərəcəli xor artistləri | — | 1060 |
| xorun digər artistləri | — | 880 |

**11.10. Estrada orkestrlərinin artistləri**

| | | |
|---|---|---|
| alətlər qrupunun konsertmeysterləri | — | 700 |

| | | |
|---|---|---|
| Estrada orkestrlərinin digər artistləri | — | 580 |

**11.11. Nəfəs alətləri orkestrlərinin, xalq çalğı alətləri orkestrlərinin və mahnı kollektivləri orkestrlərinin artistləri**

| | | |
|---|---|---|
| alətlər qrupunun konsertmeysterləri | — | 580 |
| birinci səslər | — | 520 |
| orkestrin digər artistləri | — | 460 |

**11.12. Estrada, xalq və başqa vokal və instrumental ansamblların (duetlər, triolar, kvartetlər və s.) artistləri**

| | | |
|---|---|---|
| ali dərəcə | — | 1460 |
| birinci dərəcə | — | 1180 |
| ikinci dərəcə | — | 920 |
| üçüncü dərəcə | — | 700 |

**11.13. Ədəbi-bədii tamaşalarda iştirak edən artistlər, bədii ifa artistləri, radio və televiziyada çıxış edən yazıçılar**

| | | |
|---|---|---|
| ali dərəcəli artistlər və yazıçılar | — | 3480 |
| birinci dərəcəli artistlər | — | 2900 |
| ikinci dərəcəli artistlər | — | 2320 |
| üçüncü dərəcəli artistlər | — | 1740 |

**11.14. Musiqi tərtibatçıları**

| | | |
|---|---|---|
| Bədii telefilmlərin musiqi tərtibatı, sənədli və başqa filmlərin hər hissəsi üçün | — | 5800 |

**Qeyd.** Fonoqramlarla musiqi tərtibatı verən musiqi tərtibatçılarının haqqı müəyyən edilmiş haqqın 50 faizi məbləğində ödənilir.

---

**11.15. Artist əməyinin ödənilməsinin ümumi şərtləri**

11.15.1. Ştatda olan artistlərə əmək haqqı qanunvericiliyə uyğun olaraq təşkilatda mövcud olan əməyin ödənilməsi sistemi üzrə ödənilir. Artistin əmək funksiyasının həcmi və əməyinin ödəniş dərəcəsi qüvvədə olan Vahid Tarif-İxtisas Sorğu Kitabçasına əsasən işəgötürən tərəfindən müəyyən edilərək əmək

müqaviləsində təfsilatı ilə göstərilir. Ştatda olan artistlərə bu Qaydalarla müəyyən edilmiş haqq iş həcmi normalarından artıq görülmüş işlərə görə verilir.

11.15.2. Artistlər üçün iş həcmi normaları iş xüsusiyyətlərindən asılı olaraq televiziya və radio təşkilatları (studiyaları, redaksiyaları və s.) tərəfindən hazırlanaraq qanunvericiliklə müəyyən edilmiş qaydada təsdiq edilir.

Televiziya filmlərinin və tamaşalarının çəkilişində iştirak edən artistlərə ay ərzində 8 çəkiliş günü norması müəyyən edilir. Tam çəkiliş günü 8 saatlıq iş günü hesab edilir.

11.15.3. tammetrajlı bədii filmlərin istehsalında baş rolları ifa edən ştatda olan və olmayan artistlərlə müəllif müqaviləsi bağlanılır.

Ştatda olmayan artistlərlə (o cümlədən xarici artistlərlə) əmək münasibətləri mülki-hüquqi müqavilə əsasında yaradılır.

Ştatda olmayan artistlərə haqq görülən işə görə müəyyən edilmiş məbləğlərdə ödənilir. Bu Qaydalarla müəyyən edilməyən iş növləri üzrə haqq mülki-hüquqi müqavilə və ya müəllif müqaviləsi bağlanılarkən danışıq yolu ilə müəyyənləşdirilir. Hər bir konkret halda artist tərəfindən yerinə yetiriləcək işlərin həcmi və onlara sərf olunan vaxt norması müəyyənləşdirilərək qüvvədə olan vəzifə maaşları əsasında görüləcək işlərin işəmuzd ödənilmə qiymətləri hesablanır. Artist tərəfindən yerinə yetirilən işlərin xüsusiyyətlərindən asılı olaraq danışıq haqqının qeyd edilən işəmuzd ödənilmə qiymətlərinin 5 mislindən artıq məbləğdə müəyyənləşdirilməsinə icazə verilir.

Danışıq qiyməti artistin ixtisas dərəcəsi, populyarlığı, fərdi adı, yaratdığı rolun xüsusiyyətləri nəzərə alınmaqla filmin çəkilişi üçün ayrılan təxsisatlar çərçivəsində müəyyənləşdirilir.

11.15.4. Filmin (verilişin) çəkilişi artistin təqsiri olamadan müqavilədə müəyyən edilmiş müddətdə başa çatdırılmadıqda, müqavilə həmin şərtlərlə razılaşdırılmış müddətə uzadılır.

11.15.5. Kütləvi çəkilişlərin iştirakçılarına çəkiliş pavilyonlarda aparıldıqda, bir tam kütləvi çəkiliş günü üçün 50000 manata, açıq havada aparıldıqda isə 70000 manata qədər haqq verilə bilər.

11.15.6. Kino-foto sınaqlarının keçirilməsinə, artistlərin çağırışa gəlmələrinə, baxışlara, kostyumların ölçülməsinə görə əlavə haqq ödənilmir.

11.15.7. Müqavilədə göstərilməklə müəyyən edilmiş haqq aşağıdakı qaydada ödənilir:

a) müqavilə imzalandıqdan sonra müqavilədə göstərilən məbləğin 50 faizi həcmində avans;

b) artistə tapşırılmış rolun çəkilişləri başa çatdıqdan sonra bütöv haqq.

11.15.8. İxtisas dərəcəsi olmayan artistlərə ödənilən birdəfəlik haqq üçüncü dərəcəli artistlər üçün müəyyən edilmiş müvafiq məbləğlərdə ödənilir.

11.15.9. Çəkilişlərə başqa şəhərlərdən artist çağırdıqda, film istehsal edən təşkilat qüvvədə olan qanunvericiliyə uyğun olaraq artistin yol xərclərini (gediş-gəliş), gündəlik xərclərini və kommunal xərclərini ödəyir.

11.15.10. Epizotik rollar, kütləvi səhnələr və ya birdəfəlik çəkilişlər üçün haqqın yazılı müqavilə əsasında yox, müəyyən edilmiş naryad cədvəli üzrə ödənilməsinə yol verilir.

11.15.11. İş vaxtı ərzində çəkilişdə iştirak etmək üçün daimi iş yerinin işəgötürəninin razılığı tələb olunur.

11.15.12. Çəkiliş qrupu ilə ekspedisiyaya çıxan uşaqların əmək haqqı qanunvericiliklə müəyyən edilmiş qaydada ödənilir.

11.15.13. Ekspedisiyalara cəlb edilmiş təşkilatçı-pedaqoqa əmək haqqı arayış əsasında əsas iş yeri üzrə orta aylıq əmək haqqı həcmində verilir.

11.15.14. Konsert və qastrollarda çıxışlarına görə artistlərin (musiqi kollektivlərinin) müəyyən edilmiş haqlarına fəaliyyət sahəsindən və növündən asılı olaraq aşağıdakı əmsallar tətbiq edilir:

a) dövlət fəaliyyəti xətti ilə solo konsert çıxışı üçün:

- bir hissədə — 1,4

- iki hissədə — 1,8

b) kommersiya fəaliyyəti xətti ilə solo konsert çıxışı üçün:

- bir hissədə — 2,0

- iki hissədə — 3,0

11.15.15. Tryuk çəkilişlərinə tryuk ifaçılığı sahəsində böyük təcrübəsi olan və tryuk nömrələrinin ifası üçün xüsusi vəsiqələri olan şəxslər cəlb edilə bilər. Hər bir tryukun haqqı müəllif müqaviləsi ilə müəyyənləşdirilir. Ekspedisiyalarda tryuk ifaçılarının haqqı qanunvericiliklə müəyyən edilmiş ümumi qaydada ödənilir.

## 12. Televiziya filmlərinin və digər televiziya əsərlərinin yaradıcılarına ödənilən müəllif qonorarlarının və sair ödənilən haqların verilməsi üçün telefilmlərin və digər televiziya əsərlərinin ödəniş qruplarının və mürəkkəblik dərəcələrinin müəyyən edilməsi Qaydaları

12.1. Telefilmlərin və digər televiziya əsərlərinin ödəniş qruplarının və mürəkkəblik dərəcəsinin müəyyən edilməsi üçün onların istehsalı üzrə fəaliyyət göstərən qurumun (müəssisə, idarə, təşkilat, birlik, şirkət, konsern, nazirlik və s.)

yuxarı strukturunda bu sahənin qabaqcıl işçilərindən, o cümlədən başqa təşkilatların nümayəndələrindən ibarət komissiya təşkil edilir. Bu komissiyanın tərkibinə respublikanın aidiyyəti yaradıcılıq birliklərinin, idarə və müəssisələrinin nümayəndələri də daxil edilirlər.

12.2. Komissiyanın heyəti və say tərkibi müvafiq təşkilatın rəhbəri tərəfindən təsdiq edilir.

12.3. Komissiya filmin ödəniş qrupu və mürəkkəblik dərəcəsi barədə qərar qəbul edir. Komissiya öz qərarını müəyyən qaydada qəbul edilmiş telefilm və teletamaşalara baxışdan sonra verir. Qərar komissiyanın iclasında komissiya üzvlərinin açıq və ya gizli səs çoxluğu ilə qəbul edilir. Qərar komissiyanın sədri və katibin imzası ilə müvafiq protokolla rəsmiləşdirilir. Qərarın qəbul edilməsi üçün komissiyanın iclasında onun üzvlərinin 50 faizdən çoxunun iştirakı vacibdir.

Komissiyanın qərarı əsasında təşkilatın rəhbəri ödəniş barədə əmr verir.

12.4. Komissiya üzvlərinin səsvermədə qiyabi iştirakına yol verilmir. Komissiya üzvü müzakirə edilən telefilmin və ya digər əsərin yaradıcılarından biri olarsa o, səsvermədə iştirak edə bilməz.

12.5. Filmin ödəniş qrupunu və mürəkkəblik dərəcəsini müəyyənləşdirmək üçün Komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

a) telefilmin və ya teletamaşanın müəyyən ödəniş qrupuna və mürəkkəblik dərəcəsinə aid edilməsinə dair marağı olan tərəflərin rəy və təklifləri;

b) filmin mətninin bir nüsxəsi;

c) telefilmin və ya teletamaşanın müəyyən olunmuş qaydada qəbul edilməsi barədə akt.

Komissiya sənədlər daxil olduğu vaxtdan 10 gün müddətində öz təkliflərini təşkilatın rəhbərliyinə təqdim edir.

12.6. Plyonkada və videomaqnit lentində hazırlanmış telefilmlərin, teletamaşaların və digər televiziya əsərlərinin ödəniş qruplarına aid edilməsinin əsas şərtləri aşağıdakılardır:

- televiziya sənətinin inkişafına əhəmiyyətli yenilik gətirən, yüksək ideya-bədii səviyyəsi, ictimai-siyasi məzmunu ilə diqqəti xüsusilə cəlb edən, böyük zövqlə hazırlanmış telefilmlər və tamaşalar ali ödəniş qrupuna;

- həyat problemlərinin dərindən açılmasında, mövzunun özünəməxsus yaradıcılıq həllində bütün imkanlardan bacarıqla istifadə edilərək yüksək ideya-bədii səviyyədə, peşəkarlıqla hazırlanmış maraqlı ekran əsərləri-telefilmlər, teletamaşalar birinci ödəniş qrupuna;

- ideya-bədii səviyyəsi ilə diqqəti cəlb edən, yüksək peşəkarlıq və ustalıqla hazırlanmış və özünəməxsus yaradıcılıq həlli ilə fərqlənən telefilmlər, teletamaşalar ikinci ödəniş qrupuna;

- müəyyən ideya-bədii dəyəri olan və lazımi peşəkarlıqla hazırlanmış telefilmlər, teletamaşalar üçüncü ödəniş qrupuna aid edilirlər.

12.7. Plyonkada və videomaqnit lentində hazırlanmış telefilmlərin, teletamaşaların və digər televiziya əsərlərinin dublyajlarının ödəniş qruplarına aid edilməsinin əsas şərtləri aşağıdakılardır:

- maraqlı və ifa tərzi ilə seçilən aktyor ansamblı tərəfindən yüksək ideya-bədii səviyyədə hazırlanmış kadrarxası səsləndirmələr və dublyajlar birinci ödəniş qrupuna;

- yaradıcılıq həlli və texniki baxımdan bütün komponentləri yaxşı qiymətləndirilən dublyajlar və kadrarxası səsləndirmələr ikinci ödəniş qrupuna;

- yaradıcılıq həlli və texniki baxımdan bütün komponentləri kafi qiymətləndirilən dublyajlar və kadrarxası səsləndirmələr üçüncü ödəniş qrupuna aid edilirlər.

12.8. Konsert nömrələrinin (proqramlarının) ödəniş qruplarına aid edilməsinin əsas şərtləri aşağıdakılardır:

- xüsusi bədii dəyəri (keyfiyyəti və ifa səviyyəsi) olan, maraqlı yaradıcılıq həlli və yüksək peşəkarlıq məharəti ilə seçilən konsert nömrələri (proqramları) birinci ödəniş qrupuna;

- əhəmiyyətli dərəcədə bədii dəyəri (keyfiyyəti və ifa səviyyəsi) olan, maraqlı yaradıcılıq həlli və yüksək peşəkarlıq məharəti ilə seçilən konsert nömrələri (proqramları) ikinci ödəniş qrupuna;

- müəyyən dəyəri (keyfiyyəti və ifa səviyyəsi) olan, lazımi peşəkarlıqla hazırlanmış konsert nömrələri (proqramları) üçüncü ödəniş qrupuna;

- orta dəyərli musiqi əsərləri və ya ifaçılıq və yaradıcılıq həlli baxımından zəif hazırlanmış konsert nömrələri (proqramları) dördüncü ödəniş qrupuna aid edilirlər.

12.9. Xronikal-sənədli televiziya filmlərinin ödəniş qruplarına və mürəkkəblik dərəcələrinə aid edilməsinin əsas şərtləri aşağıdakılardır:

- mövzunun aktuallığı, müasirliyi, əhəmiyyəti və publisist kəskinliyi ilə fərqlənən, yaradıcılıq həllində peşəkarlıq məharətinə əsaslanan, novatorluğu, orijinallığı, yüksək ideya-bədii səviyyəsi ilə diqqəti cəlb edən xronikal-sənədli televiziya filmləri birinin ödəniş qrupuna və birinci mürəkkəblik dərəcəsinə;

- yüksək ideya-bədii səviyyədə hazırlanmış, mövzunun təhlili, maraqlı yaradıcılıq axtarışları və peşəkarlıq səviyyəsi ilə seçilən xronikal-sənədli televiziya filmləri ikinci ödəniş qrupuna və birinci mürəkkəblik dərəcəsinə;

- ideya-bədii səviyyəsi, mövzunun düzgün açılması ilə diqqəti cəlb edən, kifayət qədər peşəkarlıqla hazırlanmış xronikal-sənədli televiziya filmləri üçüncü ödəniş qrupuna və ikinci mürəkkəblik dərəcəsinə aid edilirlər.

**13. Yekun müddəaları**

13.1. Bu Qaydalarla müəyyən edilən televiziya və radio verilişlərinin, televiziya filmlərinin və digər televiziya və radio əsərlərinin müəllif qonorarlarının, quruluş haqlarının və sair ödənilən haqların miqdarı, onların bədii-ideya səviyyəsindən, mövzunun aktuallığından, yaradıcılıq işinin orijinallığından və mürəkkəbliyindən, görülən işlərin çətinliyindən, müəllifin peşəkarlıq səviyyəsindən və s. faktorlardan asılı olaraq istehsalçı təşkilat tərəfindən büdcədə bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait dairəsində ödənilir.

13.2. Televiziya və radio verilişlərinin, televiziya filmlərinin və digər televiziya və radio əsərlərinin müəllif qonorarlarının, quruluş haqlarının və sair haqların konkret ödəniş məbləğləri onların istehsala qəbul edilməsinə, istehsala buraxılmasına, efirdə səsləndirilməsinə bilavasitə cavabdeh olan müvafiq rəhbər (baş redaktor, quruluşçu rejissor, baş quruluşçu kinooperator və s.) tərəfindən təşkilatın aidiyyəti maliyyə strukturu ilə razılaşdırılmaqla müəyyənləşdirilir. Bu halda müvafiq ödəniş qrupu üzrə müəllif qonorarlarının, quruluş haqlarının və sair ödənilən haqların ondan aşağı olan ödəniş qrupunun uyğun məbləğlərindən az miqdarda müəyyənləşdirilməsinə icazə verilmir.

---

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin
1997-ci il 2 may tarixli, 38 nömrəli qərarına
10 nömrəli əlavə

**Dövlət sifarişi ilə istehsal edilən kinofilmlərin yaradıcılarına ödənilən müəllif qonorarlarının və sair ödənilən haqların miqdarı və verilməsi**

**QAYDALARI**

**1. Kinofilmlərin ədəbi ssenarilərinə görə müəllif qonorarının minimum miqdarı**

Dövlət sifarişi ilə istehsal edilən kinofilmlərin (bundan sonra — ismin müvafiq hallarında filmlər) ədəbi ssenarilərinə görə müəlliflərə ödənilən qonorarlar aşağıdakı məbləğlərdə müəyyənləşdirilir:

*(mln. manatla)*

| Filmin növü | Orijinal ədəbi ssenari | Dərc olunmuş əsərin motivləri əsasında yazılan ssenari |
|---|---|---|
| Tammetrajlı bədii film | 25,0 | 12,0 |
| Qısametrajlı bədii film (hər bir hissə üçün) | 3,0 | 1,5 |
| Tammetrajlı cizgi filmi | 10,0 | 5,0 |
| Tammetrajlı sənədli film | 10,0 | - |
| Qısametrajlı sənədli film və ya cizgi filmi (hər bir hissə üçün) | 3,0 | - |

**2. Filmlərin orijinal musiqisinə görə müəllif qonorarının minimum miqdarı**

Filmlərə musiqi bəstələyən bəstəkarlara orijinal musiqiyə görə ödənilən qonorarlar filmin növündən və həcmindən asılı olaraq aşağıdakı məbləğlərdə müəyyənləşdirilir:

*(mln. manatla)*

| Filmin növü | Orijinal musiqi |
|---|---|
| Tammetrajlı bədii film | 12,0 |
| Tammetrajlı sənədli film və ya tammetrajlı cizgi filmi | 5,0 |
| Qısametrajlı bədii film və ya cizgi filmi (hər bir hissə üçün) | 1,5 |
| Qısametrajlı sənədli film (hər bir hissə üçün) | 1,0 |

**3. Filmləri istehsal edən quruluşçu heyətə ödənilən quruluş haqqının minimum miqdarı**

**3.1. Tammetrajlı və qısametrajlı bədii filmlərin quruluş haqqının minimum miqdarı**

Tammetrajlı və qısametrajlı bədii filmlərin quruluşçu heyətinə quruluş haqqı filmin ödəniş qrupundan asılı olaraq aşağıdakı məbləğlərdə ödənilir:

*(mln. manatla)*

| Quruluşçu heyət | Bədii filmin növü | | | |
|---|---|---|---|---|
| | tammetrajlı | | qısametrajlı (hər bir hissə üçün) | |
| | I qrup | II qrup | I qrup | II qrup |
| Quruluşçu kinorejissor | 25,0 | 18,0 | 3,5 | 2,5 |
| Kinorejissor | 7,0 | 5,0 | 1,0 | 0,8 |
| Quruluşçu kinooperator | 18,0 | 14,0 | 2,5 | 1,5 |
| Quruluşçu rəssam | 10,0 | 8,0 | 1,5 | 1,2 |
| Geyim üzrə rəssam | 2,5 | 1,5 | 0,6 | 0,5 |
| Qrim üzrə rəssam | 2,5 | 1,5 | 0,6 | 0,5 |
| Səs operatoru | 4,0 | 3,5 | 1,0 | 0,8 |
| İcraçı prodüser | 6,0 | 5,0 | 1,5 | 1,0 |
| Rejissor-montajçı | 2,5 | 2,0 | 0,6 | 0,5 |

**3.2. Tammetrajlı sənədli və cizgi filmlərinin quruluş haqqının minimum miqdarı**

Tammetrajlı sənədli və cizgi filmlərinin quruluşçu heyətinə quruluş haqqı filmin ödəniş qrupundan asılı olaraq aşağıdakı məbləğlərdə ödənilir:

*(mln. manatla)*

| Quruluşçu heyət | Tammetrajlı filmin növü (beş və daha çox hissələr üçün) | |
|---|---|---|
| | sənədli | cizgi |

| | I qrup | II qrup | I qrup | II qrup |
|---|---|---|---|---|
| Kinorejissor | 8,0 | 6,0 | 17,0 | 13,0 |
| Operator | 6,0 | 5,0 | 10,0 | 8,0 |
| Quruluşçu rəssam | - | - | 14,0 | 10,0 |
| Səs operatoru | 3,5 | 2,5 | 6,0 | 4,5 |
| İcraçı prodüser | 4,0 | 3,5 | 10,0 | 6,0 |
| Rejissor-montajçı | 1,5 | 1,2 | 3,5 | 2,5 |

**3.3. Qısametrajlı sənədli və cizgi filmlərinin quruluş haqqının minimum miqdarı**

Qısametrajlı sənədli və cizgi filmlərinin quruluşçu heyətinə quruluş haqqı filmin ödəniş qrupundan asılı olaraq aşağıdakı məbləğlərdə ödənilir:

*(mln. manatla)*

| Quruluşçu heyət | Qısametrajlı filmin növü (hər bir hissə üçün) | | | |
|---|---|---|---|---|
| | sənədli | | cizgi | |
| | I qrup | II qrup | I qrup | II qrup |
| Kinorejissor | 2,0 | 1,5 | 2,5 | 2,0 |
| Kinooperator | 1,5 | 1,2 | 2,5 | 1,7 |
| Quruluşçu rəssam | - | - | 2,7 | 1,9 |
| Səs operatoru | 1,0 | 0,8 | 1,5 | 1,2 |
| İcraçı prodüser | 1,2 | 1,0 | 2,7 | 2,0 |

## 4. Filmlərin dublyajına (səsləndirilməsinə) görə ödənilən haqq

4.1. Filmi dublyaj edən müəssisənin (studiyanın) rəhbəri ilə filmlərin dublyajına cəlb edilən yaradıcı heyət üzvləri arasında müəllif müqaviləsi, dublyaja cəlb edilən işçilərlə isə mülki-hüquqi müqavilə bağlanılır.

4.2. Tammetrajlı xarici bədii filmlərin Azərbaycan dilinə, eləcə də tammetrajlı milli bədii filmlərin xarici dillərə dublyajına görə yaradıcı heyətə aşağıdakı minimum məbləğlərdə müəllif haqqı ödənilir:

*(mln. manatla)*

| Dublyaj heyəti | Müəllif haqqı |
|---|---|
| Rejissor | 2,5 |
| Səs operatoru | 1,8 |
| İcraçı prodüser | 1,8 |

4.3. Tammetrajlı xarici filmlərin Azərbaycan dilinə, eləcə də milli filmlərin xarici dillərə dublyajına cəlb edilən işçilərə gördükləri işə görə aşağıdakı məbləğlərdə aylıq haqq ödənilir:

*(mln. manatla)*

| Filmin dublyajına cəlb edilən işçilər | Məbləğ |
|---|---|
| Rejissor | 0,8 |
| Rejissor assistenti | 0,4 |
| Səs operatoru | 0,6 |
| İcraçı prodüser | 0,6 |
| Montajçı | 0,5 |

4.4. Tammetrajlı xarici bədii filmlərin Azərbaycan dilinə, eləcə də tammetrajlı milli bədii filmlərin xarici dillərə dublyajı zamanı dialoqların sinxron tərcüməsi və dialoq mətninin tənzimlənməsi (ukladkası) işlərinin ayrılıqda hər birinin yerinə yetirilməsinə görə mütəxəssisə 2,0 milyon manat haqq ödənilir.

### 5. Filmlərin yaradıcılarına müəllif qonorarlarının, quruluş haqlarının və sair ödənilən haqların digər ümumi ödənilmə şərtləri

5.1. Filmin ədəbi ssenarisinə görə müəllif qonorarının ödənilməsi şərtləri və dövrləri ssenarinin hazırlanması, təsdiq edilməsi, filmin istehsala buraxılması, filmin qəbul edilməsi və s. mərhələlərindən asılı olaraq filmi istehsal edən müəssisənin (studiyanın) rəhbəri ilə müəllif arasında bağlanılan müəllif müqaviləsində müəyyən edilir.

5.2. Əsərin bədii-ideya səviyyəsindən, mövzunun aktuallığından, yaradıcılıq işinin orijinallığından və mürəkkəbliyindən, materialların axtarışı və öyrənilməsi

çətinliyindən, müəllifin peşəkarlıq səviyyəsindən asılı olaraq filmi istehsal edən müəssisələrdə (studiyalarda) bu məqsədlərə büdcədən ayrılmış vəsait dairəsində orijinal ədəbi ssenarilər üçün müəlliflərə ödənilən qonorarların tammetrajlı və qısametrajlı bədii filmlər, tammetrajlı və qısametrajlı sənədli və cizgi filmləri üzrə 25 faiz artırılmasına yol verilir.

5.3. Filmin orijinal musiqisinə görə müəllif qonorarının ödənilməsi şərtləri və dövrləri yerinə yetirilən işin həcminə uyğun olaraq filmi istehsal edən müəssisənin (studiyanın) rəhbəri ilə müəllif arasında bağlanılan müəllif müqaviləsində müəyyən edilir.

5.4. Bəstəkarın yaratdığı musiqi əsəri filmə uyğun gəlmədikdə və başqa bir bəstəkara musiqi sifariş verilməli olduqda, musiqi əsərini hazırlamış bəstəkara görülmüş işə görə ödəniləcək müəllif qonorarının 50 faizinə qədəri ödənilə bilər.

5.5. Musiqini bəstələyən bəstəkarın peşəkarlıq səviyyəsindən və bəstənilən musiqinin orijinallığından asılı olaraq filmi istehsal edən müəssisələrdə (studiyalarda) büdcədən ayrılmış vəsait dairəsində filmin orijinal musiqisinə görə, müəllifə ödənilən qonorarın tammetrajlı bədii, sənədli və cizgi filmləri, eləcə də qısametrajlı bədii, sənədli və cizgi filmləri üzrə 25 faiz artırılmasına yol verilir. Tammetrajlı bədii film musiqili janrda çəkildikdə, musiqini bəstələyən bəstəkara ödənilən qonorar 25 faizədək artırıla bilər.

5.6. Quruluş haqqı filmlərin quruluşçu heyətinə vəzifə funksiyaları ilə bağlı yerinə yetirilən işlərə görə, əmək haqqına əlavə ödənilən müəllif qonorarıdır. Quruluş haqqı filmin quruluşunda iştirak edən yaradıcı heyətə onlar tərəfindən mülki-hüquqi müqavilə və ya əmək müqaviləsi ilə müəyyən edilmiş vəzifə funksiyaları ilə bağlı işlər və ya müəyyən edilmiş iş həcmi normaları yerinə yetirildiyi halda, müəllif müqaviləsində nəzərdə tutulan şərtlərlə ödənilir.

5.7. Filmləri istehsal edən yaradıcı heyətin üzvlərinə ödənilən quruluş haqqının filmlərin çəkiliş işinin mürəkkəbliyindən, quruluşçu heyətin peşəkarlıq səviyyəsindən və yaradıcı işin digər xüsusiyyətlərindən asılı olaraq filmi istehsal edən müəssisələrdə (studiyalarda) büdcədən ayrılmış vəsait dairəsində 25 faiz artırılmasına yol verilir. Çoxseriyalı tammetrajlı bədii film çəkildikdə, filmi istehsal edən yaradıcı heyətin üzvlərinə ödənilən qonorar ikinci seriyadan başlayaraq, hər bir əlavə seriya üçün 25 faizədək artırıla bilər.

5.8. Quruluş haqqı filmi istehsal edən müəssisənin (studiyanın) direktoru ilə quruluşçu heyət üzvü arasında bağlanılan müəllif müqaviləsinə uyğun olaraq ödənilir. Quruluşçu heyətin üzvlərinə müqavilədə nəzərdə tutulan quruluş haqqının 50 faizi film iki plyonkada müəssisələrin (studiyaların) rəhbərləri tərəfindən qəbul olunduqdan sonra ödənilir. Qalan 50 faiz isə film müəyyən olunmuş qaydada Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Dövlət Film Fonduna təhvil verildikdən sonra ödənilir.

5.9. Neqativ və pozitiv lentlərin, eləcə də maqnit, optik səs lentlərinin normadan artıq sərf olunmasına yol verən quruluşçu heyət üzvlərinə quruluş haqqı artıq sərf olunmuş lentlərin dəyəri qədər azaldılır.

5.10. Quruluşçu heyət üzvünün yaradıcılıq işləri bir neçə mütəxəssis tərəfindən yerinə yetirildikdə, quruluş haqqının məbləği onlara gördükləri işə görə müvafiq quruluş haqqı çərçivəsində müəyyənləşdirilir.

5.11. Filmlərin istehsalında məsləhətçilər tələb olunduqda, filmi istehsal edən müəssisənin (studiyanın) rəhbəri tərəfindən müəyyən sahə üzrə məsləhətçi dəvət edilir. Məsləhətçi ilə filmi istehsal edən müəssisənin (studiyanın) rəhbəri arasında görüləcək iş və onun ödəniş dəyəri barədə mülki-hüquqi müqavilə bağlanılır.

5.12. Filmin çəkiliş qrupunun təsdiq edilmiş iş qrafikinə uyğun olaraq filmi istehsal edən müəssisənin (studiyanın) rəhbəri ilə çəkiliş qrupunun üzvləri arasında vəzifə funksiyalarının icrası ilə əlaqədar yerinə yetiriləcək işləri, onların icra müddətini və ödəniş məbləğini müəyyənləşdirən mülki-hüquqi müqavilələr bağlanılır. Bu müqavilələrdə çəkiliş qrupunun üzvünün aylıq ödəniş haqqı filmin növündən asılı olaraq aşağıdakı məbləğlərdə müəyyənləşdirilir:

*(mln. manatla)*

| **Filmin çəkiliş qrupunun üzvləri** | **Filmin növü** | | |
|---|---|---|---|
| | **bədii tammetrajlı** | **sənədli** | **cizgi** |
| Quruluşçu kinorejissor | 1,0 | - | - |
| Kinorejissor | 0,6 | 0,8 | 0,6 |
| Kinorejissor assistenti | 0,5 | 0,4 | - |
| Kinorejissor köməkçisi | 0,3 | - | - |
| Quruluşçu kinooperator | 0,8 | - | - |
| Kinooperator | 0,6 | 0,8 | 0,5 |
| Kinooperator assistenti | 0,4 | 0,4 | - |
| Quruluşçu rəssam | 0,8 | - | 0,6 |
| Rəssam assistenti | 0,4 | - | - |
| Qrim üzrə rəssam | 0,5 | - | - |
| Geyim üzrə rəssam | 0,5 | - | - |

| | | | |
|---|---|---|---|
| Rejissor-montajçı | 0,5 | 0,3 | 0,3 |
| Montajçı | 0,3 | - | - |
| Səs operatoru | 0,6 | 0,5 | 0,5 |
| Redaktor | 0,5 | 0,3 | 0,3 |
| İcraçı prodüser | 0,8 | 0,8 | 0,6 |
| İcraçı prodüser müavini | 0,4 | - | - |
| Böyük mühasib | 0,3 | 0,3 | 0,3 |

5.13. Filmin istehsalına xələl gətirmədən onun çəkilişinin səmərəliliyini yüksəltmək məqsədilə filmi istehsal edən müəssisənin (studiyanın) rəhbərinin razılığı ilə quruluşçu heyət üzvünün səriştəsi olan digər heyət üzvü ilə əvəz edilməsinə yol verilir. Bu halda əvəzetməyə görə ödənilən aylıq haqq əvəz edilən işçinin aylıq haqqının 50 faizindən az olmayaraq, quruluş haqqı isə bu vəzifələrdə quruluş haqqı almaq hüququ olduqda, hər iki vəzifə üzrə tam məbləğdə ödənilir.

5.14. Filmin çəkilişi üzrə iş planı vaxtından əvvəl yerinə yetirildikdə, filmi istehsal edən müəssisənin (studiyanın) rəhbəri tərəfindən filmin çəkiliş qrupunun üzvləri, həmçinin quruluşçu heyətin üzvləri filmin çəkilişi üçün müvafiq qaydada təsdiq edilmiş smeta xərclərində bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait dairəsində mükafatlandırıla bilərlər.

5.15. Filmlərin çəkilişinə cəlb edilən artistlərlə filmi istehsal edən müəssisənin (studiyanın) rəhbəri arasında mülki-hüquqi müqavilə bağlanılır. Müqavilədə artistə ödəniləcək haqqın məbləği onun peşəkarlıq səviyyəsindən, yerinə yetiriləcək işlərin həcmindən və çətinliyindən, filmin çəkiliş şəraitindən və s. xüsusiyyətlərindən asılı olaraq, tərəflərin qarşılıqlı razılığı ilə bu məqsədlər üçün ayrılmış büdcə xərcləri çərçivəsində müəyyənləşdirilir. Kino-foto sınaqlarının keçirilməsinə, artistlərin çağırışa gəlmələrinə, baxışlara, kostyumların ölçülməsinə görə artistlərə əlavə haqq ödənilmir. Müqavilə bağlandıqdan sonra müqavilədə göstərilən məbləğin 30 faizi həcmində artistə avans, rolda çəkiliş başa çatdıqda müqavilə məbləğinin 40 faizi həcmində haqq, film səsləndirildikdən sonra isə qalan haqq ödənilir.

5.16. Filmin çəkilişinə başqa şəhərlərdən müəyyən yaradıcı və çəkiliş qrupu üzvləri, eləcə də artistlər çağırıldıqda, filmi istehsal edən müəssisə (studiya) qüvvədə olan qanunvericiliyə uyğun olaraq onlara ezamiyyə xərcləri ödəyə bilər.

5.17. Tryuk çəkilişlərinə tryuk ifaçılığı sahəsində böyük təcrübəsi olan və tryuk nömrələrinin ifası üçün xüsusi vəsiqəsi olan şəxslər cəlb edilirlər. Bu halda filmi istehsal edən müəssisənin (studiyanın) rəhbəri ilə tryuk ifaçısı arasında müəllif müqaviləsi bağlanılır və bu müqavilədə tərəflərin qarşılıqlı razılığı ilə tryukların ifası üçün ödəniləcək haqqın məbləği və şərtləri müəyyənləşdirilir.

5.18. Kütləvi çəkilişlərin iştirakçılarına çəkiliş pavilyonlarda aparıldıqda, bir tam kütləvi çəkiliş günü üçün 50000 manata, açıq havada aparıldıqda isə 70000 manata qədər haqq ödənilə bilər. Kütləvi səhnələr və ya birdəfəlik çəkilişlər üçün haqqın yazılı müqavilə əsasında yox, müəyyən edilmiş iş və ya qulluq cədvəli üzrə ödənilməsinə yol verilir.

5.19. Filmlərin çəkilişinə kənardan cəlb edilən digər köməkçi heyət ilə filmi istehsal edən müəssisənin (studiyanın) rəhbəri arasında mülki-hüquqi müqavilə bağlanır. Bu halda müqavilədə köməkçi heyət üzvünə ödəniləcək haqqın məbləği onun peşəkarlığından, yerinə yetiriləcək işlərin həcmindən və çətinliyindən, eləcə də filmin çəkiliş xüsusiyyətlərindən asılı olaraq tərəflərin qarşılıqlı razılığı ilə bu məqsədlər üçün ayrılmış büdcə xərcləri çərçivəsində müəyyənləşdirilir.

## 6. Filmlərin ödəniş qrupunun müəyyənləşdirilməsi Qaydaları

6.1. Filmlərin ödəniş qrupunun müəyyənləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyində rəhbərliyin əmri ilə nazirliyin mərkəzi aparatının aidiyyəti struktur bölmələrindən, respublikada kinofilmləri istehsal edən müəssisələrin (studiyaların), respublikanın analoji yaradıcılıq birliyi, idarə və təşkilatlarının bu sahədə qabaqcıl iş təcrübəsi olan nümayəndələrindən, eləcə də respublikada kinofilmlərin yaradılması sahəsində misilsiz xidmətləri olan şəxslərdən ibarət daimi fəaliyyət göstərən komissiya yaradılır.

6.2. Filmin ödəniş qrupunun təyin edilməsi məqsədilə filmi istehsal edən müəssisə (studiya) tərəfindən komissiyaya aşağıdakı sənədlər təqdim edilir:

a) filmin müəyyən ödəniş qrupuna aid edilməsi barədə marağı olan tərəfin rəy və təklifləri;

b) filmin bir nüsxəsi;

c) filmin müəyyən olunmuş qaydada Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Dövlət Film Fonduna təhvil verilməsi barədə akt.

6.3. Komissiya filmin bədii-ideya səviyyəsindən, mövzunun aktuallığından, yaradıcılıq işinin orijinallığından və mürəkkəbliyindən, materialların axtarışı və öyrənilməsi çətinliyindən, müəllifin peşəkarlıq səviyyəsindən asılı olaraq filmi I və II qrupa aid edir.

6.4. Komissiyanın heyəti və say tərkibi Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri tərəfindən təsdiq edilir.

6.5. Komissiya müvafiq qaydada qəbul edilmiş filmə baxdıqdan sonra filmin ödəniş qrupu barədə qərar qəbul edir. Qərar komissiyanın iclasında komissiya üzvlərinin açıq və ya gizli səsverməsində səs çoxluğu ilə qəbul edilir. Qərar komissiyanın sədri və katibinin imzası ilə müvafiq protokolla rəsmiləşdirilir. Qərarın

qəbul edilməsi üçün komissiyanın iclasında onun üzvlərinin 50 faizindən çoxunun iştirakı vacibdir.

Komissiyanın qərarı əsasında filmi istehsal edən müəssisənin (studiyanın) rəhbəri filmin ödəniş qrupundan asılı olaraq müəllif qonorarlarının qalan hissəsinin hesablanaraq tam məbləğdə ödənilməsi barədə əmr verir.

6.6. Komissiya üzvlərinin səsvermədə qiyabi iştirakına yol verilmir. Komissiya üzvləri səsvermədən qabaq çıxışlarında filmin bu və ya digər ödəniş qrupuna aid edilməsi barədə fikirlərini komissiyanın digər üzvlərinə açıqlamalıdırlar. Komissiyanın üzvü müzakirə edilən filmin yaradıcılarından biri olarsa, səsvermədə iştirak etmir.

6.7. Komissiya filmi müvafiq ödəniş qrupuna aid edərkən aşağıdakı meyarları rəhbər tutur:

- kinofilm sənətinin inkişafına əhəmiyyətli yenilik gətirən, yüksək ideya-bədii səviyyəsi, ictimai-siyasi məzmunu ilə diqqəti cəlb edən, həyat problemlərinin dərindən açıqlanmasında, mövzunun özünəməxsus yaradıcılıq həllində müasirliyi ilə fərqlənən, yüksək tərbiyəvi əhəmiyyətə malik olan, yüksək peşəkarlıq və zövq ilə hazırlanmış filmlər birinci ödəniş qrupuna aid edilirlər;

- müəyyən ideya-bədii dəyəri olan, özünəməxsus yaradıcılıq həlli ilə fərqlənən və lazımi peşəkarlıqla hazırlanmış filmlər ikinci ödəniş qrupuna aid edilirlər.

## 7. Yekun müddəalar

7.1. Bu Qaydalara uyğun olaraq filmlərin yaradıcılarına ödənilən müəllif qonorarları, quruluş haqları və sair ödənilən haqlar filmi istehsal edən müəssisə (studiya) tərəfindən filmin çəkilişi üçün müvafiq qaydada təsdiq edilmiş smeta xərcləri üzrə bu məqsədlərə dövlət büdcəsindən ayrılmış vəsait dairəsində ödənilir.

7.2. Dövlət sifarişi ilə filmi istehsal edən müəssisənin (studiyanın) rəhbəri tərəfindən filmin yaradıcılarına müəllif qonorarlarının, quruluş haqlarının və sair ödənilən haqların bu Qaydalarla müəyyən edilmiş həddən aşağı səviyyədə müəyyənləşdirilməsinə yol verilmir.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

**1.** 24 may 2002-ci il tarixli 83 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 320**)

**2.** 16 sentyabr 2003-cü il tarixli 116 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 09, maddə 524**)

3. 11 may 2004-cü il tarixli 65 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 05, maddə 383)**

4. 09 mart 2006-cı il tarixli 69 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 03, maddə 297)**

5. 02 may 2006-cı il tarixli 119 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 05, maddə 463)**

6. 21 iyul 2008-ci il tarixli 163 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 7, maddə 683**)

7. 4 aprel 2011-ci il tarixli **48** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

**i**[1] 24 may 2002-ci il tarixli 83 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 05, maddə 320**) ilə 4-cü bənd əlavə edilmişdir. 4 - 5-ci bəndlər müvafiq olaraq 5-ci və 6-cı bəndlər hesab edilmişdir.

**ii**[2] 11 may 2004-cü il tarixli 65 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 05, maddə 383)** ilə 5-ci bənd əlavə edilmişdir. 5-ci və 6-cı bəndlər müvafiq olaraq 6-cı və 7-ci bəndlər hesab olunmuşdur.

**iii**[3] 24 may 2002-ci il tarixli 83 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 05, maddə 320**) ilə 4-cü bəndində "bu qərarla" sözləri "bu qərarın 3-cü bəndində" sözləri ilə əvəz edilmişdir.

---

iv[4] 4 aprel 2011-ci il tarixli **48** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə "Əsərin qeydiyyatı haqqında Şəhadətnamə"nin nümunəsindən "**Bu Şəhadətnamə müəlliflik prezumpsiyası kimi çıxış etmir.**" cümləsi çıxarılmışdır.

v[5] 21 iyul 2008-ci il tarixli 163 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 7, maddə 683**) ilə Əlavə 1 - "Əsərin qeydiyyatı haqqında şəhadətnamənin verilmə qaydası"nın 4-cü bəndində "**zəruridir**" sözü "**zərurəti yarandıqda əsərlər rəyə göndərilir**" sözləri ilə əvəz edilmişdir.

vi[6] 21 iyul 2008-ci il tarixli 163 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 7, maddə 683**) ilə Əlavə 1 – "Əsərin qeydiyyatı haqqında şəhadətnamənin verilmə qaydası"nın 6-cı bəndində "**Əsərini qeydiyyatdan keçirən şəxsə**" sözləri "**Əsərini qeydiyyatdan keçirən hüquq sahibinə**" sözləri ilə əvəz edilmişdir.

vii[7] 4 aprel 2011-ci il tarixli **48** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə "Ədəbiyyat və incəsənət əsərlərinin kütləvi ifasına görə müəllif qonorarının minimum miqdarı"nın 29-cu hissəsinin "Əsərlərin növləri" sütununda "**efir bildirişinə**" sözləri "**efirlə kütləvi bildirişinə**" sözləri ilə əvəz edilmişdir.

viii[8] 02 may 2006-cı il tarixli 119 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 05, maddə 463)** ilə Ədəbiyyat və incəsənət" əsərlərinin kütləvi ifasına görə müəllif qonorarının minimum miqdarı"nın 30-cu bəndinin "Qeydlər" hissəsinin 1-ci yarımbəndində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilmişdir.

ix[9] 16 sentyabr 2003-cü il tarixli 116 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 09, maddə 524**) ilə 3-cü bəndin ikinci cümləsi yeni redaksiyada verilmişdir:

Əvvəlki redaksiyada deyilirdi:

~~Hesablanmış məbləğ Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin hesabına köçürülür və mövcud qanunvericiliyə uyğun şəkildə istifadə olunur.~~

x[10] 4 aprel 2011-ci il tarixli **48** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə "Ədəbiyyat və incəsənət əsərlərinin kütləvi ifasına görə müəllif qonorarının dərəcələrindən istifadə və müəllif qonorarının hesablanması və ödənilməsi qaydaları"nın 6.1-ci bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~6.1. Xalq yaradıcılığı əsərləri;~~

xi[11] 16 sentyabr 2003-cü il tarixli 116 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 09, maddə 524)** ilə 37-ci bənd çıxarılmışdır.

xii[12] 09 mart 2006-cı il tarixli 69 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 03, maddə 297)** ilə 8 nömrəli Əlavəsinin 6-cı bəndində “daş-qaşlar” sözü “qiymətli daşlar” sözləri ilə əvəz edilmişdir.